Mirzə Məhəmməd Axundov

Şeyx Nizami

Azərbaycan Milli Elmlər Akademiyası Nizami ad. Ədəbiyyat İnstitutunun Elmi Şurasının 21 sentyabr 2016-cı il tarixli iclasının qərarı ilə (Protokol № 06) çap olunur.

Bakı – 2017

Мирза Мухаммед Ахундов

Шейх Низами

Баку – 2017

Mirza Mohammed Akhundov

Sheik Nizami

Baku – 2017

Elmi redaktor:
AMEA-nın müxbir üzvü Nüşabə Araslı

Rəyçilər:
akademik Teymur Kərimli
fil.e.d., professor Alxan Bayramoğlu

Ərəb əlifbasından transliterasiya edən, ön söz,
lüğət və şərhlərin müəllifi:
fil.ü.f.d. Təhminə Bədəlova

Üzlüyün dizaynı:
Ayla Mirzə-zadə

M.M.Axundov. **"Şeyx Nizami".**
Bakı, "Zərdabi LTD" MMC, 2017, 136 səh.

Mirzə Məhəmməd Axundovun Azərbaycan nizamişünaslığının ilk nümunələrindən olan "Şeyx Nizami" kitabçası ilk dəfə 1909-cu ildə əski əlifba ilə Gəncədə Əhməd Hacı Həsənzadə mətbəəsində nəşr olunmuşdur. Kitabça haqqında Azərbaycan nizamişünaslığında müəyyən məlumat verilmiş və o, 1992-ci ildə filologiya elmləri doktoru Xeyrulla Məmmədov tərəfindən kirill əlifbasına transliterasiya edilərək "Ana sözü" jurnalında (1992, № 1-2) dərc olunmuşdur.

Oxuculara təqdim olunan bu kitab M.M.Axundovun əsərinin 2016-cı ildə latın əlifbası ilə yenidən işlənmiş nəşrinin təkrarıdır.

© N. Rza, 2017

İÇİNDƏKİLƏR

Fədakarlıq nümunəsi. *Alxan Bayramoğlu*.....6
"Şeyx Nizami"yə və müəllifinə "yeni həyat" verən nəşr və
ya "üzdəniraq alimlər"ə tutarlı cavab. *Nərgiz Əliyeva* 13
Ön söz. *Təhminə Bədəlova* 23
Вместо предисловия.....49
Foreword.....60
Şeyx Nizami. *Mirzə Məhəmməd Axundov*.....72
İzahlar və şərhlər 98
Lüğət.....111

Mirzə Məhəmməd Axundovun "Şeyx Nizami" kitabının 1909-cu il Gəncə nəşrinin skan olunmus variantı kitaba əlavə edilmişdir

FƏDAKARLIQ NÜMUNƏSİ

XX əsrin əvvəlləri Azərbaycan ictimai-mədəni fikrinin inkişafında özgün yeri olan ədəbi-tarixi şəxsiyyətlərdən biri Mirzə Məhəmməd Axundovdur. O, Gəncə şəhər klassik kişi gimnaziyasında Ana dili və şəriət müəllimi işləmiş, dövri mətbuatda – "Həyat", "İrşad", "Molla Nəsrəddin", "Tərəqqi", "Babayi-Əmir" və s. məqalə, felyeton, şeirlər, müxtəlif yazıları ilə fəal çıxış etmiş, teatr, ədəbiyyat tarixi, mədəniyyət məsələlərinə dair kitablar, səhnə əsərləri nəşr etdirmiş, siyasi proseslərdə də yaxından iştirak etmişdir. M.M.Axundovun 1906-1907-ci illərdə yazıb dərc etdirdiyi məqalələr özünün fəal vətəndaş mövqeyi, milli təəssübkeşlik ruhu və vətənpərvərlik nümunəsi ilə yanaşı, siyasi ayıqlığı, məkrli erməni siyasətçilərini, onların fitnəkarlıqla yoğrulmuş əməllərini axıradək ifşa edə bilməsi, inandırıcılığı ilə diqqəti cəlb edir.

Qeyd etdiyimiz kimi, M.M.Axundov həm də ədəbiyyat tarixi ilə məşğul olmuşdur. Onun 1909-cu ildə Gəncədə çap etdirdiyi "Şeyx Nizami" kitabçası bu fikri söyləməyə əsas verir.

Dövrün mühüm, aktual sosial-mədəni, mənəvi-əxlaqi

məsələlərinə daim diqqət cəlb edib onların həllində xüsusi canfəşanlıqla iştirak edən M.M.Axundov görkəmli şair və mütəfəkkir, gəncəli Nizami Gəncəvinin qəbrinin künbəzinin uçub dağılmış vəziyyətini, baxımsızlığını görüb 1908-ci ilin sonlarında "Molla Nəsrəddin" jurnalı vasitəsilə ədəbi ictimaiyyətə ünvanlanmış bir həyəcan təbili çalmış, Nizami Gəncəvi kimi tarixi şəxsiyyətin, milli-ədəbi qürur mənbələrimizdən birinin xatirəsinə və şəxsiyyətinə göstərilən etinasızlığın yolverilməzliyini, bu tipli milli-mədəni aşınmaların qarşısının alınması üçün milli düşüncəli, vətəndaş ruhlu hər kəsi əlbir fəaliyyətə, belə bir həmrəylik nümunəsi kimi ədibin qəbirüstü künbəzinin onun adına, dünya ədəbi-ictimai fikrində tutduğu mövqeyə və ruhuna layiq hörmət nümunəsi olaraq abadlaşdırılması məsələsini qaldırmışdır. Mirzə Məhəmməd bu məqsədlə birinci növbədə Nizami Gəncəvi barədə onun şəxsiyyəti və irsindən xəbərsiz olan həmvətənlərinə məlumat verilməsini lazım bilərək ədib (Nizami Gəncəvi) haqda dövri mətbuatda ("Tərəqqi" qəzetində) məqalələrlə, mədəni kütləvi tədbirlərdə, teatr tamaşaları zamanı pərdələrarası fasilələrdə informativ məruzələrlə çıxışlar etmişdir. O, həm Nizami Gəncəvi künbəzinin abadlaşdırılmasına lazım olan maliyyə vəsaitinin toplanması üçün mətbuat vasitəsi ilə ədəbi ictimaiyyətə müraciət edərək, ianə dəftəri açıldığını bildirmiş, həm də teatr tamaşaları təşkili

yolu ilə lazımi məbləğin əldə ediməsinə çalışmışdır. Həmin işlərin tərkib hissələrindən biri kimi – həm Nizami Gəncəvini geniş ictimaiyyətə tanıtmaq, həm də müəyyən vəsait toplamaq məqsədilə "Şeyx Nizami" kitabçasını yazıb Gəncədə Hacı Həsən mətbəəsində çap etdirmişdir. Bu işdə ona Gəncənin və Azərbaycan ictimaiyyətinin tərəqqipərvər, imkanlı şəxsləri yaxından kömək etmişlər. "Şeyx Nizami" əsərinin üz qabığında verilən kitabın satışından əldə ediləcək vəsaitin N.Gəncəvinin qəbirüstü künbəzinin təmirinə yönəldiləcəyi barədəki elan xarakterli informasiya Mirzə Məhəmməd şəxsiyyətinin maddi təmənnasızlığı ilə yanaşı, onun bu nəşrin satışının uğurla getməsi və daha çox sayda kitab satılmasına nail olması cəhdinin göstəricisidir...

Qeyd edək ki, nəhayət, gəncəlilərin və ölkə ictimaiyyətinin dəstəyi ilə 1910-cu ildə Nizami Gəncəvinin künbəzi təmir olunub abadlaşdırılmışdı...

Mirzə Məhəmməd Axundovun "Şeyx Nizami" (Gəncə, 1909) kitabı özünün ictimai-mədəni əhəmiyyəti ilə yanaşı, nizamişünaslığın təməl daşlarından biri, N.Gəncəvi haqqında onun vətənində yazılan ilk kitabdır. Tarixi və elmi məzmun dərinliyinə, fikir və mündəricə tutumuna görə də mötəbər nümunə olan həmin nəşr nadir nümunəyə çevrilmişdi. Azərbaycan klassik ədəbiyyatının araşdırıcılarından olan filologiya üzrə fəlsəfə doktoru,

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi Təhminə xanım Bədəlova həmin nəşri ərəb əlifbasından latın qrafikasına çevirərək 2016-cı ildə Bakıda "Elm və təhsil" nəşriyyatında öz vəsaiti ilə yenidən çap etdirmişdir. O, həmin nəşrə yazdığı "Tərtibçidən" başlıqlı məzmunlu ön sözdə "Şeyx Nizami" kitabına qədərki mərhələdə Azərbaycan nizamişünaslığının inkişaf yoluna yığcam və təfsilatlı nəzər salmış, bu sahədə xidmətləri olan alim və ədəbi-tarixi şəxsiyyətlərin Nizami Gəncəvi irsinin dəyərləndirilməsindəki roluna aydınlıq gətirmişdir. Təhminə xanım dünya şərqşünaslığının nümayəndələrindən olan Ş.Ryo, Y.Rıpka, Vəhid Dəstgirdi, Səid Nəfisi, A.Y.Krımski, V.V.Bartold, Y.E.Bertels və başqalarının N.Gəncəvi irsinə, eyni zamanda, A.Y.Krımski, V.V.Bartold və A.N.Kaznakovun M.M.Axundovun "Şeyx Nizami" kitabına olan maraq və diqqətindən də bəhs etmişdir. Professor X.Məmmədovun 1992-ci ildə "Ana sözü" jurnalında "Şeyx Nizami" kitabının kiril əlifbası ilə nəşr etdirməsinə də diqqət yetirən T.Bədəlova həmin nəşrdəki qüsurlar haqda məlumat verməyi vacib saymışdır. Təhminə xanım M.M.Axundovun özü tərəfindən yol verilən bəzi nöqsanlara da dünya və Azərbaycan nizamişünaslarının – Y.Bertels, M.Ə.Rəsulzadə, H.Araslı, X.Yusifli, N.Araslı və başqalarının mötəbər elmi araşdırmalarına əsaslanaraq elmi aydınlıq gətir-

mişdir. Xüsusən N.Gəncəvinin guya Qum şəhəri ilə bağlılığına dair XV-XVI əsrlərdən etibarən məqsədli şəkildə həyata keçirilən saxtakarlığın tarixi və heç bir elmi əsası olmadığını bir daha diqqətə çatdırmış, şairin əsərlərinin daha qədim əlyazmalarında Qum şəhəri ilə bağlı heç bir qeydin olmadığını vurğulamışdır. Bununla belə, o, Mirzə Məhəmmədin nizamişünaslıqdakı xidmətlərinə yüksək qiymət verərək yazmışdır: "M.M.Axundov bəzi yanlış qənaətlərə gəlsə də, Azərbaycan ədəbiyyatşünaslığı tarixində ilk dəfə olaraq Nizami Gəncəvinin tərcümeyi-halı, həmçinin şairin "Xəmsə"sinə daxil olan ölməz poemaların yazılma səbəbi və tarixindən söhbət açmış, bu əsərlərin misilsiz əxlaqi-tərbiyəvi əhəmiyyətini göstərmişdir. M.M.Axundovun "Şeyx Nizami" kitabı Nizami irsinin Azərbaycanda öyrənilməsinə bir növ yeni təkan verdi və tədqiqatçının gördüyü işlər, apardığı araşdırmalar sonrakı dövrlərdə şairin yaradıcılığının ayrı-ayrı problemlərinin etibarlı mənbələr əsasında daha dəqiqliklə çözülməsi işində ilk və sayalı addım oldu. Buna görədir ki, Nizaminin tədqiq tarixindən, nizamişünaslığın inkişaf yollarından bəhs edən tədqiqatlarda M.M.Axundovun "Şeyx Nizami" kitabı hörmətlə anılmışdır" (*T.Bədəlova. Tərtibçidən. // M.M.Axundov. Şeyx Nizami. Bakı, "Elm və təhsil", 2016. səh. 13*).

Təhminə Bədəlovanın kitaba verdiyi "İzahlar və şərhlər", həmçinin lüğət və bəzi çətin sözlərin düzgün oxunu-

şuna dair qeydlər, etdiyi tərcümələr onun alim-tədqiqatçı səriştəsindən, tədqiqat obyekti və onunla bağlı mənbələrə dərindən bələdliyindən və həssaslığından xəbər verir. O, oxucuya kitabdan istifadəyə kömək məqsədilə "Tərtibçidən"də aşağıdakı informasiyaları da verməyi lazım bilmişdir: "Biz əsəri yenidən orijinaldan transliterasiya edərək müasir Azərbaycan əlifbasında ayrıca kitabça şəklində oxuculara çatdırmağı daha münasib gördük. Tərtib zamanı mümkün olduğu qədər kitabın əslinə, yazıldığı dövrün dil, üslub və yazı orfoqrafiyası xüsusiyyətlərinə sadiq qalmağa çalışmışıq. Bunun həm əsərin yazıldığı dövrün ümumi ab-havasını daha yaxından duymağa kömək edəcəyini, həm də əsərin dilinin ədəbi dil faktı kimi götürülməsi, ümumiyyətlə, dil tariximizi öyrənmək baxımından əhəmiyyətli olacağını düşünürük. Yalnız oxucuları çətinliyə salmamaq üçün durğu işarələri müasir qaydalara uyğun şəkildə verilmişdir.

Orijinalda mətndə fars dilində gətirilən bədii nümunələrin tərcümələri səhifənin aşağısında verilərək, sıra nömrəsi ilə işarələnmişdir. Biz də bu prinsipi olduğu kimi saxlayaraq, lazım bildiyimiz söz və ifadələri ulduzlarla işarə edərək kitabın sonundakı ayrıca bölmədə izah və şərhlər vermişik. Bundan başqa, əsərdə işlədilən və hal-hazırda anlaşılması çətin olan ərəb və fars sözlərinin lüğətini də verməyi münasib görmüşük. Yeri gəlmişkən, qeyd edək

ki, bu lüğətin tərtibi zamanı "Farsca-Azərbaycanca lüğət" (Bakı, "Şərq-Qərb", 2007) və "Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti" (2 cilddə. Bakı, "Şərq-Qərb", 2005) kitablarından istifadə edilmişdir" (*T.Bədəlova. Tərtibçidən. // M.M.Axundov. Şeyx Nizami. Bakı, "Elm və təhsil", 2016. səh.15-16*).

"Tərtibçidən" başlıqlı ön söz aşağıdakı qədirşünaslıq məzmunlu sözlərlə qurtarır: "Sonda kitabın tərtibi zamanı onun elmi baxımdan yüksək səviyyədə hazırlanması üçün dəyərli məsləhətlərini və yaxından köməyini əsirgəməyən, əsərin redaktəsinə çox böyük ciddiyyət və qayğıkeşliklə yanaşan nizamişünas alim, filologiya elmləri doktoru, professor Nüşabə Araslıya və "Şeyx Nizami" əsərinin transliterasiya edilməsini bizə tövsiyə edən, hər zaman gərəkli bilik və məlumatlarını bölüşməyə hazır olan nüzamişünas, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Xəlil Yusifliyə minnətdarlığımızı bildiririk" (*T.Bədəlova. Tərtibçidən. // M.M.Axundov. Şeyx Nizami. Bakı, "Elm və təhsil", 2016. səh.16*).

"Şeyx Nizami" kitabının həm 1909-cu il, həm də 2016-cı il nəşrləri elmi vətəndaşlıq, milli fədakarlıq nümunəsidir.

Alxan Bayramoğlu
Filologiya elmləri doktoru, professor
"Ədəbiyyat qəzeti" 7 oktyabr 2017-ci il. Səh. 27

"ŞEYX NİZAMİ"YƏ VƏ MÜƏLLİFİNƏ "YENİ HƏYAT" VERƏN NƏŞR
Və ya "üzdəniraq alimlər"ə tutarlı cavab

2014-cü ilin sonlarında Türk xalqları ədəbiyyatının inkişaf problemlərinə həsr olunmuş Beynəlxalq konfransa hazırlıq gedərkən Hindistan və İrandan oxşar məzmunlu iki məqalə göndərilmişdi. Məqalə müəllifləri iddia edirdilər ki, guya Nizami İran şairidir, onun "Xosrov və Şirin" əsərinin baş qəhrəmanı Xosrov erməni əsillidir.

Heç şübhəsiz, Redaksiya Şurasının qərarı ilə böhtan və təxribat xarakterli həmin məqalələr çap olunmadı. Məlum oldu ki, hindistanlı müəllif özbək əsillidir. Onunla mobil rabitə əlaqəsi yaratdıq. O, üzr istədi və dedi ki, mən bunları yüz il bundan əvvəl çap olunmuş bir əsərdən götürmüşəm. Onun Nizami haqqında şairin öz vətənində gedən araşdırmalardan xəbəri yox idi. M.M.Axundovun "Şeyx Nizami" kitabının tarixi yüz ili keçsə də, dünya bundan xəbərsiz idi... Odur ki, kitabın məziyyətləri barədə söhbət salmağı vacib saydıq.

"Şeyx Nizami"dən sonra Nizamiyə artan maraq

XII əsr Azərbaycan şairi Nizami Gəncəvi yazırdı ki, ey ürək, böyüklük istəyirsənsə, əlinə qələmi al və böyüklərdən yaz! Müdrikcəsinə deyilmiş bu sözləri şairin özünə də şamil etmək olar. Yazıb-yaratdığı zamandan bu yana Nizaminin adı çəkilən məqamlarda dahi mütəfəkkirin əsərlərindən ayrı-ayrı nümunələri tərtib etdikləri antologiyalara daxil etmiş təzkirə və cüng müəlliflərinin, onun həyat və yaradıcılığından söhbət açmış tədqiqatçı və araşdırmaçıların da isimləri yad edilmiş, xidmətləri qiymətləndirilmişdir. Təbii ki, şair haqqında deyilmiş hər söz, hər fikir yarandığı zamanın prizmasından dəyərləndirildikdə daha dəqiq qiymətini alır və deyək ki, elə elmi baxımdan da ən doğru yanaşma məhz bu cür olmalıdır. Bu mənada Mirzə Məhəmməd Axundovun 1909-cu ildə Gəncədə Əhməd Hacı Həsənzadə mətbəəsində nəşr olunmuş, Azərbaycan nizamişünaslığının milli təməl daşlarından olan "Şeyx Nizami" monoqrafiyası öz məzmun və elmi məziyyətləri ilə yanaşı, bir fakt kimi də zaman-zaman mütəxəssislərin diqqətini cəlb etmişdir.

Gəncə kişi gimnaziyasının ilahiyyat və ana dili müəllimi Mirzə Məhəmməd Axundzadə XIX əsrin sonları, XX əsrin əvvəllərində geniş və zəngin həyat və yaradıcılıq yolu keçmiş Azərbaycan ziyalılarındandır. Müəllim,

jurnalist, dramaturq, nasir, şair, tərcüməçi, nizamişünas, teatrşünas və ən nəhayət, ictimai xadim kimi fəaliyyət göstərən Mirzə Məhəmmədin ictimai-ideoloji görüşlərinin, siyasi əqidəsinin formalaşmasında nəşrə başladığı gündən əməkdaşlıq etdiyi "Molla Nəsrəddin" jurnalının və ən fəal üzvlərindən olduğu "Difai" firqəsinin çox böyük rolu olmuşdur.

XIII yüzillikdən etibarən ədəbi və elmi mühitin diqqət mərkəzində olan Nizami Gəncəvi şəxsiyyəti və bədii irsi XX əsrin ilk rübündə də ədəbi-ictimai fikrin üz tutduğu və bir çox səviyyələrdə, eləcə də Azərbaycan dövri mətbuatında müzakirə olunan mövzulardan biri olmuşdur. Həmin dövrün mətbuatını izlədikdə şairin yaradıcılığının öyrənilməsi və təbliği, türbəsinin təmiri və bərpası məsələləri ilə ardıcıl məşğul olan ziyalılarımız arasında xüsusən Mirzə Məhəmməd Axundzadənin fəallığının şahidi oluruq. Təsadüfi deyil ki, müəllif mətbuatda vaxtaşırı ayrı-ayrı məqalələrlə çıxış etməklə kifayətlənməmiş, Nizami Gəncəvi haqqında onun ana dilində ilk monoqrafiyanı qələmə alaraq Azərbaycan nişamişünaslığı və ədəbiyyatşünaslığına əvəzsiz töhvə vermişdir. Mirzə Məhəmməd Axundovun Azərbaycan ədəbiyyatşünaslığının diqqətindən yayınmayan və yeri qəldikcə, adı çəkilən, qeyd edilən "Şeyx Nizami" kitabının əhəmiyyətli tərəflərindən biri də odur ki, vətənimizdə məhz bundan sonra

Nizami Gəncəvi şəxsiyyətinə, fəlsəfəsinə, onun bənzərsiz poeziyasına maraq daha da artmışdır. "Şeyx Nizami" əsərinin dövrünə görə necə böyük əhəmiyyət daşımasını X.Məmmədovun aşağıdakı mülahizələri də aydın göstərir: "…M.M.Axundovun "Şeyx Nizami" əsərinin dəyərini onun elmi mündəricəsində axtarmaq səhv olar. Monoqrafiya milli süuru oyanmış xalqın öz tarixi keçmişini araşdırmaq, ötən əsrlərin qaranlıq dolanbaclarında ümumşərq mədəniyyəti kontekstində milli "mən"ini seçib götürmək, ədəbiyyatşünaslıq elmimizin təşəkkül tarixini, nizamişünaslığın inkişaf mərhələlərini öyrənmək baxımından bir təşəbbüs kimi əhəmiyyətlidir" (*X.Məmmədov. M.M.Axundov. // "Ana sözü". 1992. № 1-2. səh. 27*).

Rəsulzadənin verdiyi dəyər

"Azərbaycan şairi Nizami" monoqrafiyasının müəllifi Məhəmməd Əmin Rəsulzadə isə "Şeyx Nizami" kitabından danışarkən əsərin yazıldığı dövrü və kitabın əhəmiyyətini belə dəyərləndirir: "Bir tərəfdən islam şərqinin uğradığı ümumi gerilik, o biri tərəfdən isə çarizm istilasının zülm və istismarı nəticəsində öz keçmişini və bu keçmişdəki mədəni nailiyyətlərini unutmuş Azərbaycan Nizamini də yaddan çıxarmışdı. ...Bununla bərabər, obyektiv

olaraq onu da qeyd etmək lazımdır ki, Nizami düşünən azərbaycanlılıar tərəfindən büsbütün unudulmamışdır: məsələn, 1910-cu ildə (əslində kitab 1909-cu ildə nəşr olunmuşdur – M.Ə.) Gəncə dram cəmiyyəti dahi həmyerlisini yada salıb onun xaraba türbəsini təmir etmək üçün bir kitabça çap edərək könüllü şəkildə vəsait toplamaq təşəbbüsündə olmuşdur*"(M.Ə.Rəsulzadə. Azərbaycan şairi Nizami. Bakı, "Çıraq" nəşriyyatı, 2008. səh. 42-43).*

Mirzə Məhəmməd Axundov öz tədqiqatında Nizami Gəncəvi yaradıcılığından bəhs edən Avropa müəlliflərinin adlarını çəkir, onların şair haqqındakı yüksək fikirlərini xatırladır. Xüsusilə, alman şərqşünası Müllerin Nizami Gəncəvidən məhz bir türk şairi kimi bəhs etməsini ayrıca vurğulayır. M.M.Axundov qeyd edir ki, alman ədəbiyyatşünası İohan Şerr özünün "Ümumi ədəbiyyat tarixi" monoqrafiyasında Nizami Gəncəvinin "Xəmsə"sindən bəhs etmiş, ona yüksək qiymət vermiş və şairin doğma vətəni Gəncədə vəfat etdiyini yazmışdır. Bütün bunlar bir tərəfdən ölməz Nizami sənətinin heç bir sərhəd tanımadığını, bəşəriliyini sübut edirsə, digər tərəfdən M.M.Axundovun bilik və məlumat dairəsinin genişliyini göstərir. «Şeyx Nizami» kitabında şairin tərcümeyi-halı, əsərləri haqqında məlumat verilir. Mirzə Məhəmməd Axundov Nizami Gəncəvidən bəşəriyyətin bədii söz və hikmət xəzinəsinə dəyərli və ölməz əsərlər bəxş edən,

onu orijinal ideyalar və humanist fikirlərlə zənginləşdirən, ədəbiyyata yeni forma, yeni struktur nümunələri gətirən və uzun əsrlər Yaxın və Orta Şərq xalqları ədəbiyyatlarının əsas mövzu, süjet istiqamətlərini müəyyənləşdirən bir yaradıcılığa sahib olan mütəfəkkir şair kimi bəhs edir. Nizaminin ölməz "Xəmsə"sinə daxil olan əsərlərin hər birinin yaranma tarixi, poemanın ithaf olunduğu tarixi şəxsiyyətlər və s. haqqında məlumat verməsi göstərir ki, monoqrafiya müəllifin illərdən bəri apardığı araşdırmanın nəticəsində meydana gəlmişdir.

Kitabın üzərində M.M.Axundovun arzusuna uyğun olaraq bu sözlər yazılmışdır: "Kitabdan vüsul olan pul tamamisilə Şeyx Nizaminin künbədinə sərf olunacaqdır". Titul səhifədə isə Nizaminin xaraba qalmış məqbərəsi və onun uçmuş kərpic divarına söykənmiş Mirzə Məhəmmədin fotosu əks olunmuşdu. Şəklin altında isə dahi şairin qəbrinin acınacaqlı vəziyyətindən son dərəcə mütəəssir olan Axundovun buna həsr etdiyi şeirindən "Bu xərabə məzarda aya, Görəsən, kimdi böylə xar yatır?" – beyti verilmişdi. Dahi şairin və mütəfəkkirin məzarının ağlasığmaz vəziyyətindən dəhşətə gələn müəllifin böyük ürək yanğısı ilə qələmə aldığı və insanı duyğulandıran bu şeir kitabda bütövlükdə çap edilmişdir.

Xatırlatmaq istərdik ki, Mirzə Məhəmməd Axundovun çəkdirdiyi şəkil Nizami türbəsinin XIX əsrdə çəkil-

miş ikinci fotoşəklidir. Bunun daha aydın görünüşlü əski surəti akademik H.Araslının 1939-cu ildə nəşr etdirdiyi "Şairin həyatı" adlı əsərində verilmişdir. Hər iki foto-sənəd olduqca qiymətli tarixi faktlardır.

Oxuculara əhəmiyyətli xidmət nümunəsi

Yuxarıda qeyd etdiyimiz kimi, "Şeyx Nizami" kitabı 1909-cu ildə Gəncədə Əhməd Hası Həsənzadə qardaşları mətbəəsində əski Azərbaycan əlifbası (ərəb əlifbası) ilə nəşr olunmuşdur. Əsər 1992-ci ildə Xeyrulla Məmmədov tərəfindən kirill əlifbasına transliterasiya edilərək "Ana sözü" jurnalının 1-2 (birləşmiş) sayında dərc edilmişdir. X.Məmmədov əsərin dilini bir qədər müasirləşdirərək çağdaş Azərbaycan dilinin orfoqrafiyasına uyğunlaşdırmışdır. Qeyd edək ki, böyük zəhmət bahasına başa gələn bu işdə X.Məmmədov müəyyən diqqətsizliklərə də yol vermiş, bəzi sözlər və şəxs adlarını, xüsusilə də tanınmış Avropa şərqşünaslarının adlarını yanlış oxuduğundan dəqiq yazmamışdır.

Hər şeydən öncə, Azərbaycan nizamişünaslığının tarixinin öyrənilməsi baxımından əhəmiyyətli olan, nəşri nadir nüsxəyə çevrilən belə bir dəyərli kitabçanın müasir oxuculara çatdırılması lazım idi. Azərbaycan Milli Elm-

lər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı filologiya üzrə fəlsəfə doktoru Təhminə xanım Bədəlova bu elmi zərurəti dərk edərək, vətəndaşlıq qeyrəti ilə məsələnin həllinə girişmiş və uğurlu nəticə əldə etmişdir. Mirzə Məhəmməd Axundovun "Şeyx Nizami" kitabı ikinci dəfə 2016-cı ildə "Elm və təhsil" nəşriyyatında geniş ön söz, izahlar, şərhlər və lüğətlə birlikdə işıq üzü görmüşdür. Kitabın yeni nəşrinin sonuna orijialın fotofaksimilesi də əlavə edilmişdir. Tərtibçi əsəri orijinaldan transliterasiya etmiş və mümkün olduğu qədər kitabın əslinə, yazıldığı dövrün dil, üslub və yazı orfoqrafiyası xüsusiyyətlərinə sadiq qalmağa çalışmış və bu addımını əsaslı müddəa ilə izah etmişdir: "Bunun həm əsərin yazıldığı dövrün ümumi ab-havasını daha yaxından duymağa kömək edəcəyini, həm də əsərin dilinin ədəbi dil faktı kimi götürülməsi, ümumiyyətlə, dil tariximizi öyrənmək baxımından əhəmiyyətli olacağını düşünürük. Yalnız oxucuları çətinliyə salmamaq üçün durğu işarələri müasir qaydalara uyğun şəkildə verilmişdir" (*Təhminə Bədəlova. Tərtibçidən. // Mirzə Məhəmməd Axundov. Şeyx Nizami. Bakı, "Elm və Təhsil", 2016. səh. 15*). Mətnin orijinalında fars dilində gətirilən bədii nümunələrin tərcümələri səhifənin aşağısında verilərək, sıra nömrəsi ilə işarələnmişdir. Tərtibçi də bu prinsipi olduğu kimi saxlayaraq, lazım bildiyi söz və ifadələri ulduzlarla işarə

edərək kitabın sonundakı ayrıca bölmədə izah və şərhlər vermişdir. Aydındır ki, kitabın yazıldığı dövrdə Nizaminin əsərlərinin ən qədim əlyazmaları hələ müəllifə məlum olmamış və bu səbəbdən də M.M.Axundov bəzi yanlış qənaətlərə gəlmişdir. Tərtibçi müəllifin hər bir fikrinə nizamişünaslığın müasir mərhələsində geniş və dərin elmi araşdırmalar nəticəsində gəlinmiş qənaətlər və nəticələr baxımından yanaşaraq, eyni zamanda da müəllifin əməyinə çox böyük ehtiram və saygı göstərməklə, elmi etikanı gözləyərək yanlış hesab etdiyi fikir və mülahizələrə lazımi izahlar və şərhlər vermişdir. Bundan başqa, əsərdə işlədilən və hal-hazırda anlaşılması çətin olan ərəb və fars sözlərinin lüğətini də verməyi münasib görmüşdür.

Tərtibçi sonda kitabın tərtibi zamanı onun elmi baxımdan yüksək səviyyədə hazırlanması üçün dəyərli məsləhətlərini və yaxından köməyini əsirgəməyən, əsərin redaktəsinə çox böyük ciddiyyət və qayğıkeşliklə yanaşan nizamişünas alim, filologiya elmləri doktoru, professor Nüşabə Araslıya və “Şeyx Nizami” əsərinin transliterasiya edilməsini tövsiyə edən, hər zaman gərəkli bilik və məlumatlarını bölüşməyə hazır olan nüzamişünas, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Xəlil Yusifliyə minnətdarlığını bildirməyi də unutmamışdır.

Təhminə Bədəlova “Şeyx Nizami” kitabçası üzərində həm mətnşünas işini yerinə yetirmiş, həm də ona əlavə

etdiyi ön söz, lüğət və şərhlərin timsalında özünün elmi-nəzəri hazırlığının və tədqiqatçılıq səriştəsinin müəyyən qismini ortaya qoya bilmişdir. Bizcə, bütün bunlar faydasız qalmayıb, həmin əsərə və onun müəllifinə "yeni həyat verməklə" yanaşı, oxuculara əhəmiyyətli xidmət nümunəsi olacaqdır.

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin milli mənsubiyyəti, dövrü, mühiti və həyatı haqqında mübahisələrin, böhtanların səngimədiyi bir zamanda həmin kitabın yenidən nəşri belə "üzdəniraq alimlərə" ən yaxşı cavabdır.

Nərgiz Əliyeva
AMEA Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutunun elmi işçisi
"Kaspi" qəzeti, 1 fevral 2017-ci il. Səh. 15.

ÖN SÖZ

Nizami Gəncəvi yaradıcılığı elə yarandığı dövrdən başlayaraq şeir bilicilərinin diqqətini cəlb etmiş, təzkirə, cüng və orta əsrlərdə tərtib edilən ədəbi toplularda əksini taparaq, geniş oxucu kütləsinin dərin rəğbətini qazanmışdır.

Nizaminin müasirləri olmuş şairlər, alimlər, filosoflar və şairin xələfləri onun hikmət və söz dünyasından böyük heyranlıqla bəhs etmişlər. XIII əsrdə yaşamış qüdrətli hind şairi Əmir Xosrov Dəhləvi, XV əsr dahi özbək şairi Əlişir Nəvai və dünya ədəbiyyatı tarixində yer almış neçə-neçə görkəmli sənətkarlar Nizamini özlərinə ustad saymış, şairin yaradıcılığını yüksək qiymətləndirmişlər.

İlk elmi tədqiqi macar alimi Vilhelm Baxerin "Nizaminin həyat və yaradıcılığı" monoqrafiyası ilə başlayan Nizami irsi Qərbdə də ciddi maraq doğuraraq geniş miqyasda öyrənilmiş və bütün dünya şərqşünaslarının marağına səbəb olmuşdur. Avropa alimlərindən Ş.Ryo, Y.Rıpka, Houstma, Q.Darab, A.Arberri, Levi, İran alimlərindən Vəhid Dəstgirdi, Səid Nəfisi, Zəbihulla Səfa, Rza Şəfəq, C.Məhcub, B.Foruzənfər, Hümai, Əli Əkbər Şəhabi,

M.Moin, Misir alimi Əbdülnəim Həsəneyn, Rusiya alimlərindən A.Y.Krımski, Y.E.Bertels və başqaları Nizami əsərlərinin öyrənilməsi, nəşri, tərcüməsi sahəsində böyük işlər görmüşlər.

XX yüzilliyə qədər şairin vətənində Nizami Gəncəvinin həyatı, yaradıcılığı və şəxsiyyəti, Nizami sənətinin Azərbaycan və bütövlükdə Şərq ədəbiyyatına təsiri, habelə onun məzarı, türbəsi haqqında müxtəlif dövrlərdə ayrı-ayrı mənbələrdə bəzi məlumatlarla qarşılaşsaq da, bu illərdə Nizamiyə həsr olunmuş ayrıca monoqrafiya və tədqiqat əsəri yazılmamışdır. Sözügedən dövrdə bu sahədə görülmüş işlərdən **Abbasqulu Ağa Bakıxanovun** "Gülüstani-İrəm" əsərində şair haqqında verilmiş qısa oçerki və **Mirzə Fətəli Axundzadənin** məqalələrindəki bəzi mülahizələrini qeyd etmək olar.

Abbasqulu Ağa Bakıxanovun bu gün də Azərbaycan tarixşünaslığının qiymətli mənbələrindən hesab edilən "Gülüstani-İrəm" əsəri "Nəticə" adlı bir sonluqla tamamlanır. "Şirvan vilayətində və onunla qonşu olan yerlərdə təlifat sahibi və ya başqa fəzilət və məziyyətə malik olan şəxslərin tərcümeyi-halları"ndan bəhs edən "Nəticə"də Azərbaycanın məşhur alim, yazıçı və şairləri haqqında qısa məlumat verən müəllif Nizami Gəncəvidən də danışır.

Abbasqulu Ağa Bakıxanov Nizamiyə yüksək qiymət vermiş, onu "Həkimi-mənəvi Şeyx Nizami Gəncəvi" ad-

landırmışdır. Müəllif yazır: “Onun böyüklüyü və fəzilətlərini söyləməkdən dil acizdir. Sözlərindən şairlik dərəcəsi və rəyi aşkardır. Zərifliyi, söz və söhbətilə məclis bəzəməkdə, ümumun rəyincə, onun misli olmamışdır. Bütün şairlər onun ustalığını etiraf etmişlər” (*A.Bakıxanov. “Gülüstani-İrəm”. Bakı, Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1951. səh. 233*).

A.Bakıxanov Nizaminin “Xəmsə”sinə daxil olan beş mənzum dastanın adını çəkmiş və bu əsərlərin “şeir sənəti nöqteyi-nəzərindən bütün dünyada məşhur olub, müəllifinin kəskin fikrinə və qüvvətli təbinə açıq şahid” (*A.Bakıxanov. Göstərilən əsəri. səh. 234*) olduğunu bildirmişdir. “Nəticə”də şairin 20.000 beytdən ibarət bir divanı olduğu da qeyd edilir.

A.Bakıxanov Nizami Gəncəvinin türbəsi haqqında da söz açır: “Gəncənin yaxınlığında gözəl bir türbəsi vardır. Xarabalığa üz tutmuş olan bu türbənin bəzi yerlərini, Qarabağda yaşayan qazaqlı Mirzə Adıgözəl indi təmir etdirməkdədir” (*A.Bakıxanov. Göstərilən əsəri. səh. 234*).

Yeri gəlmişkən, qeyd edək ki, tədqiqatçı-publisist Nazim Rza İsrafiloğlu məhz Bakıxanovun bu qeydlərinə əsaslanaraq, A.S.Qriboyedovun Nizaminin məqbərəsinin təmiri üçün pul verməsi faktının inandırıcı olmadığı qənaətinə gəlir: “Bu halda belə bir sual meydana çıxır: - Əgər A.S.Qriboyedov pul veribdirsə, bəs onun verdiyi

pul nə üçün qəbrin təmirinə xərclənməmişdir? Yox, əgər qəbir təmir edilmiş olsaydı, A.A.Bakıxanov "Gülüstani-İrəm" əsərində başqa cür yazardı" *(Nazim Rza İsrafiloğlu. Mirzə Məhəmməd Axundzadə. Bakı, "Mütərcim", 2006. Səh. 130).*

A.A.Bakıxanov, çox güman ki, Dövlətşah Səmərqəndiyə əsaslanaraq, Şeyx Nizaminin "Əxi Fərəc Zəncaninin müridlərindən olub, ömrünün axırlarında guşənişinlik rəsmini qəbul edərək" (*A.Bakıxanov. Göstərilən əsəri: səh. 233*), batinini saflaşdırmaqla məşğul olduğunu və özünün:

گل رعنا میان غنچه حزین
همچو من گشته اعتکاف گزین.[1*]

Rəna gül qönçə arasında həzin-həzin,
Mənim kimi guşənişinliyə (inzivayə) çəkilmişdir… - beytində buna işarə etdiyini bildirir.

Yeri gəlmişkən, qeyd edək ki, Abbasqulu ağa Bakıxanov nümunə gətirdiyi beytin hansı əsərdən götürüldüyünü qeyd etmir. Beytə ilk dəfə Dövlətşah Səmərqəndinin "Təzkirətüş-şüəra" (XV əsr) əsərində rast gəlirik **دولت شاه سمرقندی. تذکره الشعراُ با هتمام ادوارد براون. لندن در مطبعه بریلا ۱۹۰۱. ص.۱۲۸**). Təzkirədə beyt

گل رعنا درون غنچه حزین
همچو من گشته اعتکاف نشین.

şəklində verilmişdir (nüsxə fərqləri "Gülüstani-İrəm"in elmi-tənqidi mətnində də göstərilmişdir). Görünür, A.Bakıxanov da həmin beyti məhz Dövlətşahın təzkirəsindən götürmüşdür. Beytin ölçüsünə əsasən, onun Nizami Gəncəvinin xəfif bəhrində yazılmış "Həft peykər" poemasına aid olduğunu söyləyə bilərik. Lakin əsərin elmi-tənqidi mətnində (*Nizami Gəncəvi. Yeddi gözəl. Elmi-tənqidi mətni hazırladı: Tahir Məhərrəmli. Moskva, 1987*) və filoloji tərcüməsində (*Nizami Gəncəvi. Yeddi gözəl. Filoloji tərcümə, izahlar və qeydlər professor Rüstəm Əliyevindir. Bakı, "Elm" nəşriyyatı, 1983*) bu beytə rast gəlmədik. Görünür, həmin beyt poemanın elmi-tənqidi mətninin və filoloji tərcüməsinin hazırlanmasında istifadə olunan əlyazmalarında olmayıb.

Bakıxanovun Nizami haqqındakı fikirləri nə qədər dəyərli olsa da, qısa məlumat xarakteri daşıyır və təbii ki, burada dərin elmi araşdırmadan söz gedə bilməz. Bundan başqa, ədibin bəzi yanlış məlumatlarına da rast gəlirik. Məsələn, Bakıxanovun Nizaminin Sultan Mahmud Səlcuqiyə ithaf etdiyi "Vis və Ramin" ("Veys və Ramin") adlı əsəri olması haqqındakı qeydi doğru deyil. Bakıxanov şairin ölüm tarixini də yanlış olaraq 1181-ci il göstərir.

Bununla belə, Bakıxanovun “Gülüstani-İrəm” əsərində müəllifin Nizamiylə bağlı qeydləri və şairin yaradıcılığına verdiyi qiymət Nizami sənətinə olan heç vaxt azalmayan maraq və məhəbbətin göstəricisi kimi diqqətəlayiqdir.

XIX əsr Azərbaycan fəlsəfi fikri və ədəbi-bədii düşüncəsinin tamamilə yeni hadisəsi sayılan Mirzə Fətəli Axundzadə Nizami haqqında ayrıca əsər yazmasa da, ədəbi-tənqidi məqalələrində şairi xatırlamış, onun poetik istedadı və sənət məharətini yüksək qiymətləndirmişdir.

Mirzə Fətəli Axundzadə özünün “Nəzm və nəsr haqqında” adlı məqaləsində yazır: “Tarixi-hicridən bu zamana qədər milləti-islam arasında bir kimsənə şeir ilə nəzmə fərq verməyib, hər nazimin adına bərxilafi-həqq şair deyiblər. Şeir əlahiddə bir bəxşi-ilahidir və maddeyi-qabiliyyəti-şair xudadadədir və təhsil və tərbiyət o maddənin ancaq inbisatına və əş'arın artıq zinətinə bais olar. Belə maddə sahibləri çox nadir vücuda gələrlər. Əhli-fürsdən ancaq Firdovsi və Nizami və Cami və Sədi və Mollayi-Rumi və Hafiz şairdirlər» (*M.F.Axundzadə. Nəzm və nəsr haqqında. // Əsərləri. 3 cilddə. II c. Bakı, “Şərq-Qərb”, 2005. səh. 151*).

“Əhli-fürs” deyərkən fars dilində yazan şairləri nəzərdə tutan M.F.Axundzadə Nizaminin şairlik istedadı və sənətkarlıq məharətini xüsusilə diqqətə çatdıraraq şairin adı-

nı Şərqin ən müəzzəm sənətkarları ilə yanaşı çəkmişdir.

M.F.Axundzadənin Nizami Gəncəvi haqqındakı fikirlərindən danışarkən "Yüksək İranın "Millət" qəzeti münşisinə" yazdığı "Kritika" adlı məqaləsini də xüsusi qeyd etmək lazımdır. Görkəmli ədib burada ədəbiyyat məsələlərindən bəhs edərkən öz mülahizələrini əyani şəkildə izah və sübut etmək üçün yenə də dahi şairlərin, o cümlədən də Nizami Gəncəvinin yaradıcılığını nümunə göstərərək bu kimi istedad sahiblərini peyğəmbərlərlə müqayisə edir: "Həm məzmun gözəlliyinə, həm də ifadə gözəlliyinə malik olan nəzm, Firdovsinin "Şahnamə"si, Nizaminin "Xəmsə"si, Hafizin divanı kimi nəş`ə artırıcı və həyəcanlandırıcı olub hər kəs tərəfindən bəyənilir. Belə nəzm sahiblərini peyğəmbərlərlə bərabər tutmaq olar; çünki onlar bəşər növünün fövqündə olub filosofanə xəyal və ilham sahiblərdirlər" (*M.F.Axundzadə. Kritika. // Əsərləri. 3 cilddə. II c. Bakı, "Şərq-Qərb", 2005. səh.168*).

Bir məsələni də qeyd etmək istərdik ki, XX əsrin əvvəllərində Azərbaycan dövri mətbuatında da Azərbaycan şairi Nizami Gəncəvi haqqında ardıcıl yazılar getmişdir. Bu yazıların əksəriyyətində qələm sahiblərimiz əsasən şairin qəbrinin acınacaqlı vəziyyəti, baxımsızlığı, onun bərpası təşəbbüsləri ilə çıxış edir, şairin həyatına, ölüm tarixinə aid məsələlərə toxunur, yaradıcılığının təhlili baxımından isə o qədər də dərinə getmirdilər.

Hələ 1879-cu ildə böyük Azərbaycan şairi **S.Ə.Şirvani** Nizaminin qəbrini ziyarət edərkən, onun uçub dağılmasından son dərəcə pərişan olmuş və gördüklərini ürək ağrısı ilə belə ifadə etmişdir:

Ey Şeyx Nizami, ey nizamı dağılan,
Ey Gəncədə izzü ehtişamı dağılan,
Olmuşmu sənlə mən kimi aləmdə,
Beyti, evi, məktəbi, kəlamı dağılan.

Nizami qəbrinin bərpasının zəruriliyi fikrini irəli sürən ziyalılarımız dövrün "Molla Nəsrəddin", "Kavkaz", "Kaspi", "Tərəqqi", "Елизаветпольские губернские ведомости", "Yeni fikir", "Kommunist" və başqa mətbuat orqanlarında bu məsələ ilə bağlı çıxışlar edirdilər.

Ancaq bu tərəqqipərvər ziyalıların səylərinə baxmayaraq, dünya poeziyasının nəhənglərindən biri olan Nizami Gəncəvinin uyuduğu məzarın XX yüzilliyin əvvəlinə son dərəcə acınacaqlı bir vəziyyətdə gəlib çıxması və bununla bağlı heç bir işin görülməməsi vətənin qəlbi millət eşqi ilə döyünən övladlarını narahat etməyə bilməzdi.

Bu dövrdə Nizami məqbərəsinin yenidən bərpa edilməsinə ən böyük səy göstərənlərdən və ayrı-ayrı mətbuat orqanlarında bu məsələ ilə bağlı şeir və məqalələrlə çıxış edənlərdən biri də Yelizavetpol klassik kişi gimnaziyası-

nın türk dili və ilahiyyat müəllimi **Mirzə Məhəmməd Axundov** idi. Onun bu sahədəki ardıcıl fəaliyyəti nizamişünaslığın diqqətindən yayınmamış və ədəbiyyatşünaslıqda da dəfələrlə işıqlandırılmışdır.

Gəncə mədrəsəsi. Yuxarıda sağdan ikinci M.M.Axundov

Mirzə Məhəmməd Axundov 1875-ci il avqustun 9-da qədim Gəncə torpağında Yelisavetpol klassik kişi gimnaziyasının şəriət və tatar (türk) dili müəllimi Mirzə Kərim Axundovun ailəsində dünyaya göz açmışdır. İlk təhsilini

atasından alan Məhəmməd daha sonra Gəncə mədrəsəsində məşhur müdərris Mirzə Xəlil Şeyxzamanovun şagirdi olmuş, ərəb və fars dillərini, İslam tarixi və "Qurani-Kərim"i dərindən öyrənmişdir. Mədrəsəni bitirdikdən

Birinci sırada soldan birinci M.M.Axundov

sonra Gəncə klassik kişi gimnasiyasına daxil olan Məhəmməd burada rus dilini də mükəmməl mənimsəmişdir. 1896-cı ildə gimnaziyanı bitirmiş və elə oradaca müəllimlik vəzifəsində pedaqoji fəaliyyətə başlamışdır. 1908-1915-ci illərdə çar xüsusi xidmət orqanlarının tələbi ilə

gimnaziyada dərs demək hüququndan məhrum edilsə də ("Difai" firqəsindəki siyasi fəaliyyətinə görə 1908-1913-cü ilərdə həbs və sürgündə olmuşdur), xeyli ciddi-cəhddən sonra öz vəzifəsinə bərpa edilmiş və 1918-ci ilədək Gəncədə, daha sonra, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Gəncədən Bakıya köçdükdə xalq maarif nazirinin müavini kimi məsul vəzifədə çalışmasına baxmayaraq Bakıda, 1920-ci il aprel çevrilişindən sonra isə yenidən Gəncədə pedaqoji fəaliyyətini davam etdirmiş, ömrünün sonunadək məsləkinə sadiq qalmışdır. M.M.Axundov Azərbaycan müəllimlərinin 15 avqust 1906-cı il tarixli I və 25 avqust 1907-ci il tarixli II qurultaylarının fəal iştirakçısı olmuşdur.

M.M.Axundov pedaqoji fəaliyyətlə yanaşı, geniş elmi maarifçiliklə də məşğul olmuşdur. 1896-cı ildə yenicə müəllimliyə başlamış 21 yaşlı Mirzə Məhəmmədin "Sərfi-türki" kitabı Tiflisdə Kamal Ünsizadənin mətbəəsində çapdan çıxmışdı. Bu, M.M.Axundovun ilk kitabı idi və məktəblərdə dərs vəsaitinə olan böyük tələbatı qismən də olsa, ödəmək məqsədilə yazılmışdı.

M.M.Axundovun əsasən gimnaziya şagirdləri üçün dərslik kimi nəzərdə tutulan, eyni zamanda geniş oxucu kütləsinin faydalana biləcəyi kitablarından biri də müsəlmanlıq əqidəsindən, İslamın qayda və qanunlarından

bəhs edən beşcildlik "Əqaidül müslimin"dir. Burada namaz, zəkat, həcc ziyarəti və İslam dini ilə bağlı digər məsələlər anlaşıqlı şəkildə izah olunmuşdur.

M.M.Axundovun maarifçilik fəaliyyətinin bir qolu da "Molla Nəsrəddin" satirik jurnalı ilə əlaqədardır.

M.M.Axundov Gəncədə "Cəmiyyəti-xeyriyyə", "Nəşri-maarif" və "Dram" cəmiyyətlərinin, 1899-cu ildə şəhərdəki "Hüseyniyyə" məscidində A.S.Puşkinin anadan olmasının 100 illiyi münasibətilə açılmış Puşkin kitabxanasının türk bölməsinin təşkilində və sonrakı fəaliyyətlərində bilavasitə iştirak etmişdir.

M.M.Axundov tərcüməçilik işi ilə də məşğul olmuşdur. Onun tərcüməçilik fəaliyyəti istər kəmiyyət, istərsə də keyfiyyət baxımıdan maraq doğurur. Ədib məşhur türk yazarı Namiq Kamalın "Vətən, yaxud Silistrə" dramını Azərbaycan dilinə çevirmiş, pyes 1907-ci il noyabrın 26-da Bakıdakı "Nicat" maarif cəmiyyətinin teatr truppası tərəfindən səhnəyə qoyulmuş və elə həmin ilin dekabrında ayrıca kitab şəklində çap olunmuşdur. M.M.Axundov daha sonra böyük ingilis dramaturqu Vilyam Şekspirin "Venedikt taciri", "İki veronalı", rus yazıçısı N.V.Qoqolun "Evlənmə", Bədrəddin Həsən və Məhəmməd Rüfətin "Nədamət" pyeslərini də Azərbaycan türkcəsinə tərcümə etmişdir. Onu da qeyd edək ki, "Nə-

damət” pyesi 1910-cu ilin dekabrında Gəncə “Dram cəmiyyəti” tərəfindən tamaşaya qoyulmuş, 1911-ci ildə isə Səmərqənddə oynanılmışdır.

M.M.Axundovun dramaturgiya yaradıcılığı da yetərincə zəngindir: 1899-cu ildə Gəncənin mədəni həyatında əhəmiyyətli bir hadisə baş verdi, şəhərdə ilk professional teatr açıldı. Teatr sənətinin gələcək inkişafı üçün dramaturgiyanın böyük əhəmiyyət kəsb etdiyini yaxşı dərk edən M.M.Axundov öz qələmini bu sahədə də sınamaq qərarına gəldi. 1902-ci il yanvarın 4-də o, özünün ilk səhnə əsərini - “Məhəbbətsizliyin nəticəsi, yaxud ata və ananın təqsiri” komediyasını yazıb başa çatdırmışdı. Elə həmin il fevralın 20-də Tiflisdə Rusiya imperatorunun Qafqaz canişininin senzurası tərəfindən pyesin Qafqazda fəaliyyət göstərən teatrların səhnələrində tamaşaya qoyulmasına icazə verilmişdi. M.M.Axundzadə bundan başqa, tarixi mövzuda yazılmış “Səd Vəqqas”, yaxud “Fəthi-Qüdsiyyə” (1908), “Hər nə əkərsən, onu biçərsən” (1909), “Analıq” (1913), “Sonrakı peşimanlıq səmərə verməz” (1914) pyeslərinin də müəllifidir. Ayrı-ayrı mənbələrdə verilən məlumatlara görə, “Hiyləgər Əbdül”, “Aldanmış cavan”, “Müsibəti-Xosrov bəy” (əsər bitməmişdir) dramları, “Yaşına-yaşına, çıxdı ocaq başına” operetta librettosu da onun qələminə məxsusdur.

M.M.Axundov Azərbaycan şifahi xalq yaradıcılığının toplanması və nəşri işinə də öz töhfəsini vermişdir. Onun 1910-cu ildə Bakıda Orucov qardaşlarının mətbəəsində nəşr etdirdiyi "Məclis yaraşığı" adlı kitabında üç yüzdən artıq müxtəlif məzmunlu lətifə toplanmışdı. Tədqiqatçıların fikrincə, onların arasında tərtibçinin özünün də qələm məhsulları az deyildi. 1926-cı ildə Bakıda "Azərbaycan ədəbiyyatı cəmiyyəti" tərəfindən çap edilmiş "Bayatılar və manilər" kitabına yazılmış "Bir-iki söz"dən də məlum olur ki, kitabdakı materialların toplanmasında Mirzə Məhəmmədin də xidmətləri olmuşdur.

M.M.Axundovun 1909-cu ildə Gəncədə "Dram cəmiyyəti" tərəfindən nəşr edilən "Teatro nədir?" əsəri azəri türkcəsində teatr haqqında yazılmış ilk kitab idi. Müəllif əsərdə teatrın, dramaturgiyanın elmi-nəzəri əsaslarını işləmiş və bir teatrşünas kimi çıxış etmişdir.

M.M.Axundovun fəaliyyəti mətbuatla da sıx bağlı olmuşdur. Onun bir şair kimi formalaşmasında qüdrətli ədəbi məktəbə malik "Molla Nəsrəddin" jurnalının əvəzsiz rolu olmuşdur. 1996-cı ildən ömrünün sonuna qədər jurnalın fəal əməkdaşı olan Axundzadə öz yaradıcılığında əsas etibarilə onun mövqeyində dayanmışdır.

M.M.Axundzadə şeirlərini, adətən, "Hatif" təxəllüsü ilə imzalayardı. Lakin onun başqa imzaları da vardı: "Na-

di", "Mollapərəst", "Yoncasatan", "Hacıkəndli", "Həvvaz", "Hatifi-Gənceyi", "Gəncə şairi", "Qeybi", "Tamrançı", "Gözü ilə görən", "Molla Zoru", "Zalıbəy", "Köhnə şair". Bu imzalara "Şərqi-rus", "Həyat", "İrşad", "Açıq söz", "Yeni həqiqət" kimi qəzetlərdə və xüsusilə də "Molla Nəsrəddin" dərgisində tez-tez rast gəlinirdi.

Avamlığa, cəhalətə, dini xurafata, habelə cəmiyyətdə mövcud olan və onu tərəqqidən təcrid edən digər neqativ təzahürlərə qarşı mübarizədə elmin, maarifin olduqca gözəl, təsirli silah olduğunu gözəl dərk edən M.M.Axundov 1910-cu ildə "Nəşri-maarif" cəmiyyəti tərəfindən H.Həsənzadə mətbəəsində nəşr olunmuş elmi-publisistik "Röyam, yaxud həqiqətə təsadüf" kitabında yetişməkdə olan gənc nəslin hərtərəfli inkişafının, yüksək təhsil almasının, çağdaş elmin sirlərinə dərindən yiyələnməsinin tərəfdaşı və təəssübkeşi kimi çıxış etmişdir.

M.M.Axundov, eyni zamanda, xalqının azadlığı uğrunda hər cür mübarizədən çəkinməyən vətənpərvər bir ziyalı idi. O, Gəncədə gizli şəkildə fəaliyyət göstərən "Difai" firqəsinin[1*] yaradıcılarından və ən fəal üzvlərindən biri olmuş, çar hakimiyyəti devrildikdən sonra Milli Komitənin, "Türk Ədəmi-Mərkəziyyət - Müsavat" partiyasının Rəyasət Heyətinin üzvü kimi fəaliyyət göstərmiş, Azərbaycan Demokratik Cümhuriyyətinin qurulmasında

yaxından iştirak etmiş, yeni yaradılmış hökumətdə maarif nazirinin müavini vəzifəsində çalışmışdır.

"Türk Ədəmi-Mərkəziyyət-Müsavat" partiyası Mərkəzi Komitəsinin üzvləri (1918-ci il). Ortada M.M.Axundov, sağda M.Ə.Rəsulzadə, solda Nəsib bəy Usubbəyli

Mirzə Məhəmməd Axundovun xidmətlərindən biri də qələmə aldığı "Şeyx Nizami" monoqrafiyasıdır. "Şeyx Nizami" əsərini haqlı olaraq "Nizami haqqında onun ana dilində yazılmış ilk elmi araşdırma" kimi qiymətləndirən fi-

lologiya elmləri doktoru Xeyrulla Məmmədov da qeyd edir ki, "müəllifin belə bir ağır işə girişməkdə izlədiyi başlıca məqsəd müasirlərinin diqqətini sənətinin bütün dünyanı heyran etdiyi, lakin həmvətənlərinin unutduğu böyük gəncəlinin şəxsi və yaradıcılıq taleyinə cəlb etmək və onun sənətkar əzəməti haqqında xələflərində sadə şəkildə də olsa, ilkin elmi qənaət yaratmaqla hikmət və poeziya həvəskarlarını şairin dağılmış türbəsinin təmirinə yardım göstərməyə çağırmaq olmuşdur. Təsadüfi deyildir ki, monoqrafiyanın müqəddiməsində və sonuna əlavə edilmiş şeirdə bu ideya qabarıq şəkildə səslənir" (*X.Məmmədov. M.M.Axundov. // "Ana sözü". 1992. № 1-2. səh. 27*).

Mirzə Məhəmməd Axundov Nizami Gəncəvidən böyük şəxsiyyət, görkəmli humanist şair kimi bəhs etmişdir. "Şeyx Nizami" kitabı müəllifin illərdən bəri apardığı axtarışlarının nəticəsidir. Kitabın ortaya çıxmasının əhəmiyyətli tərəflərindən biri də odur ki, Azərbaycan ədəbiyyatşünaslığında məhz bundan sonra Nizami Gəncəvi şəxsiyyətinə, fəlsəfəsinə, onun bənzərsiz poeziyasına maraq daha da artmış, Nizami mövzusu təkcə ədəbiyyatşünaslıqda deyil, eləcə də elmin digər sahələrində, incəsənətin müxtəlif növ və janrlarında ən aktual mövzulardan birinə çevrilmişdir. "Şeyx Nizami" əsərinin dövrünə görə necə böyük əhəmiyyət daşımasını X.Məmmədovun aşağıdakı mülahizələri də aydın göstərir: "…M.M.Axundovun "Şeyx Niza-

mi” əsərinin dəyərini onun elmi mündəricəsində axtarmaq səhv olar. Monoqrafiya milli süuru oyanmış xalqın öz tarixi keçmişini araşdırmaq, ötən əsrlərin qaranlıq dolanbaclarında ümumşərq mədəniyyəti kontekstində milli “mən”ini seçib götürmək, ədəbiyyatşünaslıq elmimizin təşəkkül tarixini, nizamişünaslığın inkişaf mərhələlərini öyrənmək baxımından bir təşəbbüs kimi əhəmiyyətlidir” (*X.Məmmədov. Göstərilən əsəri. Səh. 27*).

Mirzə Məhəmməd Axundov öz tədqiqatında Nizami Gəncəvi yaradıcılığından bəhs edən Avropa müəlliflərinin adlarını çəkir, onların şair haqqındakı yüksək fikirlərini xatırladır. Xüsusilə, alman şərqşünası Müllerin Nizami Gəncəvidən məhz bir türk şairi kimi bəhs etməsini ayrıca vurğulayır. M.M.Axundov qeyd edir ki, alman ədəbiyyatşünası İohan Şerr özünün “Ümumi ədəbiyyat tarixi” monoqrafiyasında Nizami Gəncəvinin “Xəmsə”sindən bəhs etmiş, ona yüksək qiymət vermiş və şairin doğma vətəni Gəncədə vəfat etdiyini yazmışdır. Bütün bunlar bir tərəfdən ölməz Nizami sənətinin heç bir sərhəd tanımadığını, bəşəriliyini sübut edirsə, digər tərəfdən M.M.Axundovun bilik və məlumat dairəsinin genişliyini göstərir.

«Şeyx Nizami» kitabında şairin tərcümeyi-halı, əsərləri haqqında məlumat verilir.

M.M.Axundov apardığı araşdırmalar nəticəsində N.Gəncəvinin saray şairi olmadığını söyləmiş, onun “bi-

rinci dərəcəli şairlər”in sırasında ən şərəfli yerlərdən birini tutduğunu nəzərə çatdırmışdır. Kitab çapdan çıxan vaxt M.M.Axundov “Difai” firqəsinin liderlərindən biri kimi həbs edilmişdi. Kitabın üzərində M.M.Axundovun arzusuna uyğun olaraq bu sözlər yazılmışdır: “Kitabdan vüsul olan pul tamamisilə Şeyx Nizaminin künbədinə sərf olunacaqdır”.

Kitabın titul səhifəsində Nizaminin xaraba qalmış məqbərəsi və onun uçmuş kərpic divarına söykənmiş Mirzə Məhəmmədin fotosu əks olunmuşdu. Şəklin altında isə dahi şairin qəbrinin acınacaqlı vəziyyətindən son dərəcə mütəəssir olan Axundovun buna həsr etdiyi şeirindən “Bu xərabə məzarda aya, Görəsən, kimdi böylə xar yatır?” – beyti verilmişdi. Dahi şairin və mütəfəkkirin məzarının ağlasığmaz vəziyyətindən dəhşətə gələn müəllifin böyük ürək yanğısı ilə qələmə aldığı və insanı duyğulandıran bu şeir kitabda bütövlükdə çap edilmişdir.

Şeirə və sənətkara qarşı gördüyü belə laqeyd münasibətdən hədsiz təəssüf hissi keçirən M.M.Axundov yazırdı: “Avropalılar alimə, ədibə və şairə ehtiram etməkdə ümumiyyət üzrə mütəəsib degildirlər. Hər taifədən olur-olsun, ədibin və şairin ehtiramını lazım dərəcədə duturlar və onun gözəl əsərlərini öz dillərinə tərcümə edirlər”.

“Şeyx Nizami” kitabı görkəmli ədəbiyyatşünas alim, bolşevik repressiyasının ilk qurbanlarından biri Firidun

bəy Köçərlinin də diqqətini cəlb etmişdir. Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsərində ona öz münasibətini bildirmiş və M.M.Axundovun "Şeyx Nizami" kitabında dərc edilmiş şeirini bütövlükdə əsərinə daxil etmişdir.

"Şeyx Nizami" əsəri haqqındakı fikirlərini davam etdirən Köçərli yazırdı: "Şeyxin "Xəmsə"si mənzumələrdən mürəkkəbdir: "Məxzənül-əsrar", "Leyli və Məcnun", "Xosrov və Şirin", "Həft peykər", yaxud "Bəhramnamə" və "İskəndərnamə"[1*]. Bu kitabların hər birisinin xüsusunda və onların tarixi və səbəbi-təlifi barəsində Mirzə Məhəmməd Axundovun kitabçasında qədri-kifafınca məlumat verilmişdir" *(Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. 2 cilddə. I c. Bakı, "Avrasiya PRESS", 2005. Səh. 102)*.

Maraqlıdır ki, əldə olan məlumatlar Mirzə Məhəmməd Axundovun kitabının Azərbaycandan kənarda da yayıldığını göstərir. Görkəmli şərqşünas alim A.Krımski "История Персии, её литературы и дервишеской теософии" əsərində M.M.Axundovun "Şeyx Nizami" kitabına işarə edir: "Могила Низами к нашим временам пришла в сильный упадок. Года два назад мусульманское драматическое общество в Елисаветполе подняло вопрос о реставрации её и издало по этому

поводу особую брошюру на азербайджанском языке” (А. Крымский. История Персии, её литературы и дервишеской теософии. Часть II. От разложения сельджукского царства до монголов. Подготовительные материалы для Трудов по востоковедению, издаваемые Лазаревским Институтом Восточных языков. Выпуск XVI, часть 2-я. Стр.161.).

1913-cü ildə məşhur rus alimi və şərqşünası V.V.Bartoldun “Записки Восточного Отделение Русского Археологического Общества” məcmuəsinin XXI cildində dərc olunan “Могила поэта Низами” məqaləsindən aydın olur ki, müəllif Tiflisdəki Qafqaz muzeyinin direktoru A.N.Kaznakovdan Şeyx Nizami məqbərəsinin iki şəklini əldə etmişdir. Bu şəkillərdən biri “Şeyx Nizami” kitabçasında əksini tapmış foto idi. Əsərlə tanış olan şərqşünas-alim müəllifin Avropa mənbələrinə əsaslandığını xüsusi vurğulayır: “Второе изображение заимствовано из брошюры (20 стр) на азербайджанском языке (شیخ نظامی), также полученной мною от А.Н.Казнакова. Автор брошюры – Мирза Мухаммед Ахундов; брошюра составлена по европейским пособиям (автор ссылается на «Историю ислама» А.Мюллера, вышедшую в русском переводе под редакцией Н.А.Медникова, и на «Всеобщую историю литера-

туры» Шерра и издана в Гяндже (Елисаветполе) в 1909 г.) (*В.В.Бартольд. Могила поэта Низами. // “Записки Восточного Отделение Русского Археологического Общества”, СПб., Пг. т. XXI, 1913, стр .034-036*)”.

M.Ə.Rəsulzadə də “Şeyx Nizami” kitabına yüksək qiymət vermiş, onu “unudulmuş Nizaminin” elmi-ədəbi ictimaiyyətə yenidən qaytarılması kimi dəyərləndirmişdi: “...1910-cu ildə Gəncə dram cəmiyyəti dahi həmyerlisini yada salıb onun xaraba türbəsini təmir etmək üçün bir kitabça çap edərək könüllü şəkildə vəsait toplamaq təşəbbüsündə olmuşdur” (M.Ə.Rəsulzadə. Azərbaycan şairi Nizami. Bakı, “Çıraq” Nəşriyyatı, 2008. səh. 42).

M.M.Axundov bəzi yanlış qənaətlərə gəlsə də, Azərbaycan ədəbiyyatşünaslığı tarixində ilk dəfə olaraq Nizami Gəncəvinin tərcümeyi-halı, həmçinin şairin “Xəmsə”sinə daxil olan ölməz poemaların yazılma səbəbi və tarixindən söhbət açmış, bu əsərlərin misilsiz əxlaqi-tərbiyəvi əhəmiyyətini göstərmişdir.

M.M.Axundovun “Şeyx Nizami” kitabı Nizami irsinin Azərbaycanda öyrənilməsinə bir növ yeni təkan verdi və tədqiqatçının gördüyü işlər, apardığı araşdırmalar sonrakı dövrlərdə şairin yaradıcılığının ayrı-ayrı problemlərinin etibarlı mənbələr əsasında daha dəqiqliklə çözülməsi

işində ilk və sayalı addım oldu. Buna görədir ki, Nizaminin tədqiq tarixindən, nizamişünaslığın inkişaf yollarından bəhs edən tədqiqatlarda M.M.Axundovun "Şeyx Nizami" kitabı hörmətlə anılmışdır.

Azərbaycan alimi Orucəli Həsənov Mirzə Məhəmməd Axundovun "Şeyx Nizami" kitabı haqqında təfərrüatı ilə məlumat vermiş və əsəri qiymətləndirmişdir (Orucəli Həsənov. Nizamini tədqiq edən Azərbaycan alimləri. // Nizami. IV kitab. Bakı, 1947, səh. 133-141). Tədqiqatçı-alim Zəhra Allahverdiyeva "Azərbaycanda nizamişünaslığın təşəkkülü və inkişafı" adlı monoqrafiyasında (Zəhra Allahverdiyeva. Azərbaycanda nizamişünaslığın təşəkkülü və inkişafı (XX əsrin 40-cı illəri). Bakı, Nurlan, 2007. səh 10) 1909-cu ildə Gəncədə "Şeyx Nizami" kitabını nəşr etdirən Mirzə Məhəmməd Axundovun əsəri üzərində dayanmış, bu kitabın Azərbaycan nizamişünaslığının tarixində mühüm bir hadisə olduğunu qeyd etmişdir. Nazim Rza İsrafiloğlunun "Mirzə Məhəmməd Axundzadə" kitabında (Bakı, "Mütərcim", 2006), Alxan Məmmədovun "Nizami Gəncəvi irsinə məhəbbətlə" ("Nizamişünaslıq". Elmi əsərlər. № 1. AMEA GREM. Bakı, "Elm və təhsil. 2011. Səh. 54-56), Aygün Məmmədovanın "Mirzə Məhəmməd Axundov" ("Çağımızdan görünən orta əsrlər". AMEA Nizami ad. Ədəbiyyat İnstitutu. R.Azadəyə həsr olunmuş II beynəlxalq elmi konfransın materialları. 15-16 dekabr,

2004. Səh. 569-572) və başqa tədqiqatlarda da M.M.Axundovun xidmətlərindən və "Şeyx Nizami" əsərinin əhəmiyyətindən danışılmışdır.

M.M.Axundovun "Şeyx Nizami" kitabı 1992-ci ildə Xeyrulla Məmmədov tərəfindən kirill əlifbasına transliterasiya edilərək "Ana sözü" jurnalının 1-2 (birləşmiş) sayında dərc edilmişdir. X.Məmmədov əsərin dilini bir qədər müasirləşdirərək çağdaş Azərbaycan dilinin orfoqrafiyasına uyğunlaşdırmışdır. Qeyd edək ki, böyük zəhmət bahasına başa gələn bu işdə X.Məmmədov müəyyən diqqətsizliklərə də yol vermiş, bəzi sözlər və şəxs adlarını, xüsusilə də tanınmış Avropa şərqşünaslarının adlarını yanlış oxuduğundan dəqiq yazmamışdır.

Biz əsəri yenidən orijinaldan transliterasiya edərək müasir Azərbaycan əlifbasında ayrıca kitabça şəklində oxuculara çatdırmağı daha münasib gördük. Tərtib zamanı mümkün olduğu qədər kitabın əslinə, yazıldığı dövrün dil, üslub və yazı orfoqrafiyası xüsusiyyətlərinə sadiq qalmağa çalışmışıq. Bunun həm əsərin yazıldığı dövrün ümumi ab-havasını daha yaxından duymağa kömək edəcəyini, həm də əsərin dilinin ədəbi dil faktı kimi götürülməsi, ümumiyyətlə, dil tariximizi öyrənmək baxımından əhəmiyyətli olacağını düşünürük. Yalnız oxucuları çətinliyə salmamaq üçün durğu işarələri müasir qaydalara uyğun şəkildə verilmişdir.

M.M.Axundov, oğlu Cəlal, qızı Pakizə

Orijinalda mətndə fars dilində gətirilən bədii nümunələrin tərcümələri səhifənin aşağısında verilərək, sıra nömrəsi ilə işarələnmişdir. Biz də bu prinsipi olduğu kimi saxlayaraq, lazım bildiyimiz söz və ifadələri ulduzlarla (məs:, [1*]; [2*]) işarə edərək kitabın sonundakı ayrıca bölmədə izah və şərhlər vermişik. Bundan başqa, əsərdə işlədilən və hal-hazırda anlaşılması çətin olan ərəb və fars sözlərinin lüğətini də verməyi münasib görmüşük. Yeri gəlmişkən, qeyd edək ki, bu lüğətin tərtibi zamanı "Farsca-Azərbaycanca lüğət" (Bakı, "Şərq-Qərb", 2007) və "Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti" (2 cilddə. Bakı, "Şərq-Qərb", 2005) kitablarından istifadə edilmişdir.

Sonda kitabın tərtibi zamanı onun elmi baxımdan yüksək səviyyədə hazırlanması üçün dəyərli məsləhətlərini və yaxından köməyini əsirgəməyən, əsərin redaktəsinə çox böyük ciddiyyət və qayğıkeşliklə yanaşan nizamişünas alim, filologiya elmləri doktoru, professor Nüşabə Araslıya və "Şeyx Nizami" əsərinin transliterasiya edilməsini bizə tövsiyə edən, hər zaman gərəkli bilik və məlumatlarını bölüşməyə hazır olan nüzamişünas, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Xəlil Yusifliyə minnətdarlığımızı bildiririk.

Təhminə Bədəlova
Filologiya üzrə fəlsəfə doktoru

ВМЕСТО ПРЕДИСЛОВИЯ

С самого начала своего возникновения творчество Низами Гянджеви привлекло внимание знатоков поэзии. Оно неизменно входило в тезкире, джинг, а также в литературные сборники, составленные в средние века, и завоевывало глубокое признание и любовь широкой читательской аудитории.

Поэты, ученые, философы, а также последователи великого поэта проявляли огромное восхищение его мудростью и неповторимостью поэтической мысли, оригинальностью языка. Живший в XIII веке великий индийский поэт Амир Хосров Дехлеви, великий узбекский поэт XV века Алишер Навои, а также много других видных мастеров слова, занявшие достойное место в истории мировой литературы, справедливо считали Низами своим мастером и высоко ценили творчество поэта.

Монография «Жизнь и творчество Низами» венгерского ученого Вильгельма Бахера считается первым научным исследованием поэта. Именно после этого исследовательского труда Низами привлек к себе огромный интерес на Западе, вследствие чего началось изучение его творчества в широком масштабе. Востоковеды многих стран мира начали проявлять

повышенный интерес ко всему тому, что связано с именем Низами.

Европейские ученые Ш.Рё, Ю.Рынка, Хоустма, Г.Дараб, А.Арверри, Леви, иранские ученые Вахид Дестгирди, Сайид Нафиси, Забиулла Сафа, Рза Шафаг, Дж.Махсуб, Б.Форузанфар, Химаи, Али Акбер Шахаби, М.Моин, египетский ученый Абдулнаим Хасанейн, русские ученые А.Е.Крымский, Ю.Е.Бертелс и другие в деле изучения, издания, перевода произведений Низами сыграли огромную и неоценимую роль.

Несмотря на то, что до XX столетия на родине поэта можно было в разное время в разных источниках встретить некоторую информацию о жизни, творчестве и личности Низами Гянджеви, о влиянии его творчества на азербайджанскую, в целом на восточную литературу, а также о его могиле, тюрбе, к сожалению, в эти годы не было написано отдельной монографии и исследовательской работы. Анализируя этот период, можно отметить лишь короткий очерк о поэте в монографии Аббасгулу Ага Бакиханова «Гюлистан-и Ирем» и некоторые высказывания в статьях Мирзы Фатали Ахундзаде.

В начале XX века в азербайджанской периодической печати тоже были опубликованы статьи об азербайджанском поэте Низами Гянджеви. В большинстве этих публикаций авторы в основном говорили об

ужасающем состоянии могилы поэта, о ее полной запущенности, выступали с инициативой о реставрации тюрбе, поднимали вопросы о дате смерти поэта, о его жизни, но, как правило, глубоко не анализировали его творчество.

В тот период одним из тех представителей интеллигенции, которые прилагали максимум усилий для реставрации могилы Низами, был преподаватель тюркского языка и богословия Елизаветпольской классической мужской гимназии Мирза Мухаммед Ахундов (Ахундзаде). Поэтому в периодической печати постоянно публиковались его стихи и статьи. Доктор филологических наук Хейрулла Мамедов совершенно справедливо оценивает произведение Мирзы Мухаммеда Ахундова «Шейх Низами» как «первое научное исследование, написанное на родном языке о Низами». Он отмечает, что «основная задача автора, взявшего на свои плечи такой сверхтяжелый груз, заключается в том, чтобы привлечь внимание современников к личной и творческой судьбе великого гянджинца, который своим творчеством покорил весь мир, но был незаслуженно забыт своими земляками. Он старался, пусть даже простым языком, создать у последующего поколения научное понятие о его величайшем поэтическом мастерстве и тем самым воодушевить любителей поэзии на оказание помощи в восстановлении полуразру-

шенной тюрбе великого поэта. Конечно, не случайно, что во вступительной статье монографии и в стихотворении, данном в конце, эта идея проходит золотой нитью». (*Х.Мәмтәдов, М.М.Ахундов // «Ana sözü», 1992, N 1-2*).

Мирза Мухаммед Ахундов представил Низами Гянджеви как выдающуюся личность и великого поэта-гуманиста. Книга «Шейх Низами» является результатом его многолетних научных изысканий. Одна из важных сторон появления на свет этой книги в том, что именно после нее возрос интерес к личности Низами Гянджеви, его философии, его неповторимой поэзии. Тема Низами превратилась в одну из актуальных тем не только в литературоведении, но и в других сферах науки, а также в разных видах и жанрах искусства. Произведение «Шейх Низами» сыграло важную роль для своего времени. Об этом ясно говорит в своих рассуждениях Х.Мамедов: «Было бы ошибкой искать ценность произведения «Шейх Низами» М.М.Ахундова в его научном содержании. Монография в первую очередь ценна тем, что она является важным шагом в деле исследования истории своего народа, в котором проснулось национальное самосознание. Выбрать и взять в контексте общевосточной культуры свое национальное «я», в темных лабиринтах прошлых веков, а также изучения истории формирования литерату-

роведческой науки и этапов развития низамиведения» *(X.Məmmədov. M.M.Axundov. // "Ana sözü". 1992. № 1-2. səh. 27).*

Мирза Мухаммед Ахундов в своем исследовании называет имена европейских авторов, которые анализировали творчество Низами Гянджеви, напоминает их ценные мысли о поэте. В частности, особенно выделяет немецкого востоковеда Мюллера, который в своем исследовании «говорит о Низами Гянджеви как о тюркском поэте». Кроме того, М.М.Ахундов доводит до сведения, что немецкий литературовед Йохан Шерр в своей монографии «Всеобщая история литературы» рассказал о «Хамсе» Низами Гянджеви, высоко оценил его, особенно отметил, что он умер в своем родном городе Гяндже. Все это, с одной стороны, говорит о том, что неувядаемое творчество Низами не знает границ, является достоянием всего человечества, с другой стороны, показывает уровень знаний и широту информированности.

В книге «Шейх Низами» дается биография поэта, широкая информация о его произведении.

Благодаря исследованиям М.М.Ахундова, становится ясно, что Низами Гянджеви никогда не был дворцовым поэтом. М.М.Ахундов убедительно доказывает и доводит до сведения, что поэт занимает одно из почетных мест в ряду «поэтов первой величины».

Когда книга «Шейх Низами» вышла в свет, М.М.Ахундов был арестован как один из лидеров партии «Дифаи» («Защита»). По личному желанию М.М.Ахундова на титульном листе книги были напечатаны следующие слова: «Вся выручка от реализации книги будет потрачена на восстановление купола тюрбе Шейха Низами».

На титульной стороне книги было помещено фото развалившейся тюрбе и облокотившегося на развалины кирпичной стены М.М.Ахундова. А под фото строки из его стихотворения, посвященного этому ужасному зрелищу. Неимоверно расстроенный увиденным, он, как бы вопрошая, писал: «Скажите, кто лежит в этой развалившейся могиле?» Стихотворение, написанное с болью в сердце и затрагивающее чувства человека, находившегося под впечатлением невообразимого состояния могилы великого поэта и мыслителя, было целиком напечатано в книге.

Такое безразличное отношение к поэзии и великому творцу вызывало безграничную досаду и сожаление. По этому поводу он писал: «Европейцы с большим уважением относятся к ученым, писателям, поэтам. Невзирая на социальное положение и национальную принадлежность, проявляют почтительное и уважительное отношение. Переводят на свои языки их прекрасные произведения».

Книга «Шейх Низами» привлекла внимание известного ученого-литературоведа, одного из первых жертв большевистских репрессий Фиридун бека Кёчарли. В своем произведении «Материалы истории литературы Азербайджана» (*X.Məmmədov. Göstərilən əsəri. səh. 27*). Фиридун бек Кёчарли выразил свое отношение к ней, и стихотворение М.М.Ахундова, напечатанное в книге «Шейх Низами», полностью ввел в свое произведение.

Продолжая свои рассуждения о книге «Шейх Низами», Ф.Кёчарли писал: «Хамсе» Шейха (имеется в виду Низами Гянджеви) состоит из следующих произведений «Сокровищница тайн», «Лейли и Меджнун», «Хосров и Ширин», «Семь красавиц» или «Бахрамнаме» и «Искендернаме». О каждой из этих книг, а также их истории и причинах создания в книге Мирзы Мухаммеда Ахундова дано достаточно информации» *(Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. 2 cilddə. I c. Bakı, "Avrasiya PRESS", 2005. səh. 102).*

Из напечатанной в 1913 году в журнале «Записки восточного отделения Русского Археологического Общества» статьи известного русского ученого и востоковеда В.В.Бартольда «Могила поэта Низами» явствует, что автор, будучи в Тифлисе, получил от директора Кавказского музея А.Н.Казнакова две фотографии тюрбе Шейха Низами. Одна из них была той фотографией, которая была напечатана в книге «Шейх Низами».

Статья В.В.Бартольда однозначно доказывает, что книга Мирзы Мухаммеда Ахундова была распространена далеко за пределами Азербайджана. Ознакомившись с произведением, ученый-востоковед особенно подчеркивает, что он (т.е. М.М.Ахундов) основывается на европейские источники: «Второйе изображение заимствовано из брошюры (20 стр.) на азербайджанском йазыке также полученной мыною от А.Н.Казнакова. Автор брошюры-Мирза Мухаммед Ахундов., брошюра составлена по европейским пособийан (автор ссылается на «Историю ислама» А.Мюллера, вышедшую в русском переводе под редакцией Н.А.Медникова, и на «Всеобщую историю литературы» Шерра и издана в Гяндже (Елисаветполе) в 1909 г. (*В.В.Бартольд. Могила поэта Низами. // "Записки Восточного Отделения Русского Археологического Общества", СПБ., Пг. т. XXI, 1913, стр. 034-036*)".

М.М.Ахундов, несмотря на некоторые неточности, впервые в истории азербайджанского литературоведения написал биографию Низами Гянджеви, а также рассказал о причине и истории написания входящих в «Хамсе» неповторимых поэм. Показал бесподобное нравственно-воспитательное значение этих произведений.

Книга «Шейх Низами» М.М.Ахундова дала новый толчок в деле изучения наследия Низами в Азер-

байджане. Работа, проделанная исследователем, стала первым твердым шагом в решении некоторых проблем последующего периода творчества поэта на основе источников, объективность которых не вызывала даже малейшего сомнения. Именно поэтому среди работ, посвященных исследованию Низами, путям развития низамиведения, книга М.М.Ахундова «Шейх Низами» всегда вызывала огромное восхищение и уважение.

М.Э.Расулзаде в своей монографии «Азербайджанский поэт Низами» расценил книгу «Шейх Низами» как высокую оценку, данную великому поэту, «думающими азербайджанцами» (*M.Ə.Rəsulzadə. Azərbaycan şairi Nizami. Bakı, 1991. səh 30.*). Азербайджанский ученый Оруджали Гасанов дал полную и широкую информацию о книге Мирзы Мухаммеда Ахундова «Шейх Низами» и высоко оценил ее. (*Orucəli Həsənov. Nizamini tədqiq edən Azərbaycan alimləri. // Nizami. IV kitab. Bakı, 1947, səh. 133-141*). Ученый-исследователь Захра Аллахвердиева в монографии «Формирование и развитие низамиведения в Азербайджане» (*Zəhra Allahverdiyeva. Azərbaycanda nizamişünaslığın təşəkkülü və inkişafı (XX əsrin 40-cı illəri). Bakı, Nurlan, 2007. səh 10)* подробно остановилась на произведении «Шейх Низами», которое напечатано в 1909 году в Гяндже М.М.Ахундовым, и подчеркнула, что эта книга – важное событие в истории низамиведения в Азербайджане.

В книге *Назима Рза Исрафилоглу «Мирза Мухаммед Ахундзаде» (Bakı, "Mütərcim", 2006), в исследованиях Алхана Мамедова «С любовью к наследию Низами Гянджеви» ("Nizamişünaslıq". Elmi əsərlər. № 1. AMEA GREM. Bakı, "Elm və təhsil. 2011. səh. 54-56), Айгюн Мамедовой «Мирза Мухаммед Ахундов» ("Çağımızdan görünən orta əsrlər". AMEA Nizami ad. Ədəbiyyat İnstitutu. R.Azadəyə həsr olunmuş II beynəlxalq elmi konfransın materialları. 15-16 dekabr, 2004. səh. 569-572*), а также в других исследованиях говорилось о заслугах М.М.Ахундова и значении книги «Шейх Низами».

В 1992 году Хейрулла Мамедов произвел транслитерацию книги М.М.Ахундова «Шейх Низами» на кириллицу и напечатал в 1-2 (объединенном) номере журнала «Ана сезю» («Материнское слово»). Х.Мамедов в какой-то степени осовременил язык произведения и тем самым добился соответствия орфографии современного азербайджанского языка. Однако нужно отметить, что эта работа требовала огромного труда, Х.Мамедов допустил ряд неточностей. Некоторые слова и имена существительные, особенно имена известных европейских востоковедов, были неправильно прочитаны, оттого и были написаны неточно.

Мы произвели новую транслитерацию произведения. На этот раз на современном азербайджанском

алфавите. И сочли более уместным напечатать его отдельной книгой и представить читателям. Во время работы над книгой старались быть как можно больше привержены оригиналу, языку, стилю, а также орфографическим особенностям времени написания произведения. Думается, что это поможет как можно ближе ощутить общее настроение и ауру того времени, а также будет иметь важное значение для истории языка нашего народа. Потому что язык произведения берется нами как факт литературного языка.

FOREWORD

Nizami Gyanjavi's creativity has drawn poetry connoisseurs' attention since the very beginning of its appearance. It always included tezkire, jing, as well as literary almanacs composed in medieval centuries, and was deeply recognized and loved by a broad auditory of readers.

Poets, scientists, philosophers, as well as followers of the great poet displayed a great admiration at his wisdom and unique nature of his poetical thought, originality of language. Great Indian poet Amir Khosrov Dehlevi, who lived in the 13th century, Alisher Navoi, great Uzbek poet of the 15th century, as well as many other prominent literary masters, who have occupied a worthy place in the history of the world literature, fairly considered Nizami their own master, and highly appreciated poet's creativity.

The monograph "Nizami's Life and Creativity" by Hungarian scientist Wilhelm Baher is considered to be the first scientific research of the poet. After starting this research work, Nizami drew a great interest in the West, that triggered a large-scale study of his creativity.

Orientalists from many countries began displaying an increased interest in everything related to Nizami's name.

European scientists Sh. Roe, Y.Rynka, Houstma, G.Darab, A.Arverry, Levi, Iranian scientists Vahid Destgirdi, Sayeed Nafisi, Zabiullah Safa, Rza Shafag, J.Mahsub, B.Foruzanfar, Khimayi, Ali Akber Shahabi, M.Moin, Egyptian scientist Abdoulnaim Hasaneyn, Russian scientists A.E.Krymsky, Y.E.Bertels and others played a great, invaluable role in studying, editing, and translating Nizami's works.

Though certain information about Nizami Gyanjavi's life, creativity and personality, as well as his influence upon the Azerbaijani literature and the whole Oriental literature could be revealed from the poet's homeland on the basis of different sources at different times before the 20th century, as well as from his grave, unfortunately, no separate monograph or research work about him was written in those years. Analysis of the period above reveals that only a brief essay about the poet contained in monograph "Gulistan-i Irem" by Abbasgulu Agha Bakikhanov, and certain sayings about the poet in articles written by Mirza Fatali Akhundzadeh can be underscored.

Articles about Azerbaijani poet Nizami Gyanjavi were also published in Azerbaijani periodical press at the

beginning of the 20th century. In most of these publications, authors talked primarily about the awful condition of the poet's grave, its being quite desolated, suggested restoring the grave, and raised questions about the date of the poet's death but, as a rule, did not analyze his creativity in details.

At that period, one of the intelligentsia representatives, who did their best to get Nizami's grave restored, was Mirza Mohammed Akhundov (Akhundzadeh), a teacher of the Turkic language and theology of the Yelizavetpol classical male gymnasium. Thus, his verses and articles were permanently published in periodical press. Kheyrullah Mamedov, PhD, quite fairly assesses "Sheik Nizami", a work by Mirza Mohammed Akhundov, as "the first scientific research written about Nizami in the native language." He further notices that "the key task of the author, who put such an extra-heavy burden onto his shoulders, was to draw his contemporaries' attention to the personal and creative fate of the great Gyanja resident, who had conquered the whole world by his creativity but was undeservedly forgotten by his country fellows. He tried, using simple language, to make a scientific understanding about his greatest poetic mastership for the next generation and thus encourage all those fond of

poetry to provide help to restore the semi-destroyed grave of the great poet. Of course, it is no coincidence that this concept is the key one in the monograph's foreword and in the verse described at the end (*Kh.Mammadov, M.M.Akhundov // Ana sözü», 1992, N 1-2 / X.Məmmədov, M.M.Ахундов // «Ana sözü», 1992, N 1-2*).

Mirza Mohammed Akhundov introduced Nizami Gyanjavi as an outstanding personality and great poet-humanist. A book titled "Sheik Nizami" is the result of his multiyear scientific researches. One of the important aspects of this book is that its appearance triggered an increase of interest in Nizami Gyanjavi's personality, philosophy, and unique poetry. The theme of Nizami became one of most actual topics not only in the history and criticism of literature but also in other sciences, as well as different kinds and genres of art. The work "Sheik Nizami" played an important role in its time. Kh. Mamedov clearly talks about this in his thoughts by saying, "It would be a mistake to look for the scientific value of M.M.Akhundov's work "Sheik Nizami". The monograph is of value primarily because it is an important step toward the study of the history of its nation that saw its national self-conscience woken up. It is essential to choose its national "ego" in the context of

general Oriental culture in the dark labyrinths of past centuries, as well as study the history of formation of the history and criticism of literature and stages of development of study of Nizami's works." (*Kh.Mammadov, M.M.Akhundov//_"Ana sözü". 1992. № 1-2. səh. 27 /_X.Məmmədov. M.M.Axundov. // "Ana sözü". 1992. № 1-2. səh. 27).*

Mirza Mohammed Akhundov, in his research work, calls the names of European authors, who analyzed Nizami Gyanjavi's creativity, and reminds about their valuable thoughts about the poet. In particular, he emphasizes Muller, a German orientalist who, in his work, "speaks about Nizami Gyanjavi as a Turkic poet." Besides, M.M.Akhundov notifies that German literature critic Johan Sherr, in his monograph titled "Universal History of Literature", told about "Khamse", a work by Nizami Gyanjavi, highly appreciated it, and particularly noted that the poet had died in his home town of Gyanja. This testifies, on the one hand, that Nizami's unfading creativity is beyond any boundaries and, on the other hand, points to the level of his knowledge and broadness of his awareness.

A book titled "Sheik Nizami" yields the poet's biography and provides broad information about his works.

Owing to M.M.Akhundov's research works, it becomes apparent that Nizami Gyanjavi never was a court poet. M.M.Akhundov convincingly proves and notifies that the poet occupies one of the honored places in the rank of "first-size poets." After book "Sheik Nizami" appeared, M.M.Akhundov was arrested as one of the leaders of Difai Party (Defense Party). Following M.M.Akhundov's personal wish, the following words were printed on the book's front page: "All the profits from the sale of this book will be spent for the restoration of the cupola of Sheik Nizami's grave."

The book's front page reveals the photograph of the destroyed grave and M.M.Akhundov, who elbows onto the debris of brick wall. Under the photograph, there are given lines from his verse devoted to this terrific sight. Unbelievable upset by what he saw, he wrote, as if asking himself, "Tell me, who lies in this broken grave?" The verse, written with heartache and touching the senses of a man impressed by an unbelievable condition of the great poet and thinker's grave, was wholly published in the book.

Such an indifferent attitude to the poetry and great creator caused an unlimited vexation and regret. On this occasion, he wrote, "Europeans treat scientists, writers,

and poets with a great respect. Regardless from their social status and nationality, they display an honored, respectful attitude. They translate the latter's excellent works into their respective languages."

Book "Sheik Nizami" drew the attention of Firidun bek Kocharly, a famous critic of literature and one of the earliest victims of the Bolshevik repressions. In his work titled "Materials of the History of Literature of Azerbaijan" (*Kh.Mammadov, Göstərilən əsəri. p. 27 / X.Məmmədov. Göstərilən əsəri. səh. 27*), Firidun bek Kocharly expressed his attitude to the literature of Azerbaijan and fully introduced M.M.Akhundov's verse published in book "Sheik Nizami" in his work.

Continuing his thoughts about book "Sheik Nizami", F.Kocharly wrote, "Khamse by the Sheik (meaning Nizami Gyanjavi) consists of the following works: "The Treasury of Mysteries", "Leyli and Mejnun", "Khosrov and Shirin", "The Seven Beauties" or "Bahramnameh", and "Iskendernameh". The book by Mirza Mohammed Akhundov provided sufficient information about each of the books above, as well as about their history and reasons of their creation. *(Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. 2 cilddə. I c. Bakı, "Avrasiya PRESS", 2005. səh. 102 / Firudin bek Kocharly. Azerbaijani literature. 2*

Volumes. Vol. I. Baku, " Avrasiya Press" , 2005. p. 102).

"The Grave of Poet Nizami", an article by prominent Russian scientist and orientalist V.V.Bartold published in journal "Notes of the Oriental Department of the Russian Archaeological Company" in 1913 reveals that the author, while in Tiflis, received two photographs of Sheik Nizami's grave from A.N.Kaznakov, the Director of the Caucasian Museum. One of the photographs was a one published in book "Sheik Nizami."

The article by V.V.Bartold unequivocally proves that the book by Mirza Mohammed Akhundov was spread far beyond Azerbaijan. Having acquainted with the work, the scientist-orientalist underscores that he (i.e. M.M.Akhundov) proceeds from European sources: "The second photograph borrowed from a 20-page brochure (in the Azeri language) was also received by me from A.N.Kaznakov. The author of the brochure is Mirza Mohammed Akhundov; the brochure is composed basing upon European guidelines (the author refers to A.Muller's "History of Islam", a work that was published in Russian under the edition by N.A.Mednikov, and to Sherr's "Universal History of Literature" issued in Gyanja (Yelizavetpol) in 1909.) (*V.V.Bartold. The Grave of Poet Nizami.// "Notes of the Oriental Department of*

the Russian Archaeological Company", St-Petersburg, vol. XXI, 1913, p. 034-036).

Despite certain inaccuracies, M.M.Akhundov was the first man in the history of Azerbaijani criticism of literature, who wrote the biography of Nizami Gyanjavi and reported the reasons and history of appearance of unique poems that constitute the "Khamse". He pointed to the unique moral and educational importance of works above.

"Sheik Nizami", a work by M.M.Akhundov, gave a new impetus to the study of Nizami's heritage in Azerbaijan. The work done by the researcher became the first firm step toward the solution of some problems of the next period of the poet's creativity on the basis of sources, whose objectivity and fairness were beyond any doubts. That's why, out of all works devoted to study of Nizami, ways of development of study of his works, M.M.Akhundov's work "Sheik Nizami" always caused a great admiration and respect.

M.E.Rasulzadeh, in his monograph "Azerbaijani Poet Nizami", regarded book "Sheik Nizami" as a high appreciation of the great poet by "thinking Azerbaijanis." (*M.E.Rasulzadeh. Azerbaijani Poet Nizami. Baku, 1991, p. 30 / M.Ə.Rəsulzadə. Azərbaycan şairi Nizami. Bakı, 1991.*

səh 30 / M.A.Rasulzadeh. Azerbaijani poet Nizami. Baku, 1991. p. 30). Azerbaijani scientist Orujali Hasanov provided the full, broad information of Mirza Mohammed Akhundov's book "Sheik Nizami" and highly appreciated it. (*Orucəli Həsənov. Nizamini tədqiq edən Azərbaycan alimləri. // Nizami. IV kitab. Bakı, 1947, səh. 133-141 / Orujali Hasanov. Azerbaijani scientists researched Nizami. // Nizami. Book IV. Baku, 1947, p. 133-141*). Scientist-researcher Zahra Allahverdiyeva, in her monograph "Formation and Development of Study of Nizami's Works in Azerbaijan", (*Zəhra Allahverdiyeva. Azərbaycanda nizamişünaslığın təşəkkülü və inkişafı (XX əsrin 40-cı illəri). Bakı, Nurlan, 2007. səh 10*), detailed about work "Sheik Nizami" that had been published by M.M.Akhundov in Gyanja in 1909 and stressed that the work was an important event in the history of study of Nizami's works in Azerbaijan.

"Mirza Mohammed Akhundzadeh", a book by Nazim Rza Israfiloglu (Bakı, "Mütərcim", 2006), "With Love for Nizami Gyanjavi's Heritage", researches by Alkhan Mamedov ("Nizamişünaslıq". Elmi əsərlər. № 1. AMEA GREM. Bakı, "Elm və təhsil". 2011. səh. 54-56) ("Nizami studies". Scientific works. № 1. ANAS GREM. Baku, "Elm ve tehsil", 2011, p.54-56), "Mirza Mohammed

Akhundov", a work by Aygun Mamedova ("Çağımızdan görünən orta əsrlər". AMEA Nizami ad. Ədəbiyyat İnstitutu. R.Azadəyə həsr olunmuş II beynəlxalq elmi konfransın materialları. 15-16 dekabr, 2004. səh. 569-572) ("Medieval centuries from our era" ANAS, Institute of Literature named after Nizami Gyanjavi, Materials of the II international scientific conference devoted to R. Azade, 15-16 December, 2004, p.569-572) as well as other research works mentioned M.M.Akhundov's merits and the importance of his book "Sheik Nizami."

In 1992, Kheyrullah Mamedov transliterated M.M.Akhundov's book "Sheik Nizami" into Cyrillic and published it in vol.1-2 (combined) of journal "Ana Sozu" ("Mother's Word".) Kh.Mamedov modernized, to a certain extent, the work's language and thus got its orthography's compliance with modern Azerbaijani language. However, it should be noted that this work required huge efforts so Kh.Mamedov made a series of inaccuracies. Some words and nouns, especially the names of prominent European orientalists had been read wrongly and so they were written wrongly as well.

We have made a new transliteration of the work. This time, we did it in modern Azerbaijani alphabet. And we considered it appropriate to publish it in the form of a

separate book that is to be presented to our readers. While working on the book, we tried to be as much adhered to the originality, language, style, as well as orthographic peculiarities of the time of the work's being written as possible. We believe that this will help feel general moods and aura of that period as close as possible and have the important meaning for the history of language of our nation because the work's language is considered by us the fact of a literary language.

Nizaminin türbəsi

ŞEYX NİZAMİ

TƏRCÜMEYİ-HALI

ƏSƏR:

Mirzə Məhəmməd Axundov

Naşiri:
Məhəmmədbağır bəy Şeyxzamanov

Kitabçadan vüsul olan pul təmamisilə Şeyx Nizaminin künbədinə[1*] sərf olunacaqdır.

Gəncədə Əhməd Hacı Həsənzadə mətbəəsində çap olundu.

səneyi-miladi 1909 səneyi-hicri 1327

Nizaminin uçuq türbəsi. Solda M.M.Axundov

Nizaminin uçuq türbəsi (başqa rakurs)

MÜQƏDDİMƏ

Bu zəmanədə, yəni on doqquzuncu əsrin ibtidasından başlıyaraq Avropada şayani-təqdir və ya ğibtə olunası bir hal varsa, o da ədiblərin, mühərrirlərin, şairlərin və alimlərin əhvallarıdır. Avropa cəmaəti onların aləmi-insaniyyətə olan xidmətlərini nəzərə alub, onların şan və şərəfləri və adlarının həmişə bər həyat qalmağı uğurunda artıcaq ğeyrət etməkdədir. Cəmaət onların evlərini və şeylərini gələcəyə bir yadigar olmaq üçün satın alub, mühafezət edir. Qəbirlərinin üstündə böyük, pürqiymət və müzəyyən nişangahlar tikdirirlər. Onların adlarına məktəb və mədrəsə bina etdirirlər. Xülasə, hər növ ilən ki, mümkündür, öz ədiblərinin və şairlərinin xidmətlərinin müqabilində bir xidmətdə bulunmağa himmət və ğeyrət edirlər. Avropalılar alimə, ədibə və şairə ehtiram etməkdə ümumiyyət üzrə mütəəsib degildirlər. Hər taifədən olur-olsun, ədibin və şairin ehtiramını lazım dərəcədə duturlar və onun gözəl əsərlərini öz dillərinə tərcümə edirlər. Odur ki, cəmaətdən belə hüsni-təqdir görüb belə şəxslərin ədədləri gün-gündən artmaqdadır. Avropanın hansı bir şəhərinə gedirsən, orada bir ədibin nişanı və ya bir şairin adına olan binayi-xeyir görərsən. Avropada hət-

ta küçələrə də məşhur və mə`ruf bir şairin və ya bir ədibin adını qoymuşlar. Onun əsərlərini yüz minlərcə təb` etdirüb, cəmaət arasında nəşr etdirirlər.

Bizə, yəni müsəlmanlara gəldikdə iş büsbütün əksinədir. Bir ədib və ya bir şair nə sağlığında və nə də öləndən sonra heç bir ehtiram görmiyor. Aləmi-islamiyyətdə minlərcə ədiblər və şairlər gəlüb-keçmişlər, onların əksərinin əsla adı da xatirlərdə qalmıyubdur. Adı xatirlərdə qalanın qəbri namövcuddur. Qəbri məlum olanlar xərabədir.

Əsəri mövcud olan şairlərimizin əksəri namətbu`dur. Bəzilərinin əsərləri bəzi əşxaslar tərəfindən zəbt olunub, yüzə də çıxmıyor. Bu işi belə edən şəxslər bunu özləri içün fəxr də bilürlər. Neçə ki, gəncəli Mirzə Mehdi Naci[1*] təxəllüs əleyhirrəhmənin var yox bir nüsxədən ibarət olan əş`arı özünü alim və məarifpərəst bilən bir nəfər müəllimnüma tərəfindən zəbtə urulubdur. Nə varislərinin və nə də cəmaətdən "Naci"nin[2*] əsərini təb` etdirmək istəyənlərin təvəqqeləri ğaseb cənabinə təsir etmiyor.

Bəli, bizim işimiz Avropanın büsbütün əksinədir. İslam şairlərindən Sədilərin, Hafizlərin, Füzulilərin, Xaqanilərin, Qaanilərin və ilax kimilərin qəbirləri xərab olub, onu təmir etmək xatirə belə gəlmiyor. Bunların cümləsindən biri də Gəncənin həvalisində vaqe birinci dərəcədən hesab olan şairi-ustad (həmin tərcümeyi-əhvalını yazdığım) Şeyx Nizami Gəncəvi əleyhirrəhmədir.

ŞEYX NİZAMİ

Şeyx Nizaminin babaları "Qum" əhlindən[1*] olub da özünün təvəllüdü və həm vəfatı Gəncə şəhərində olduğundan "Nizami Gəncəvi" deməklə məşhurdur. Nizaminin əsl adı "İlyas"»dır ki, "Yusif"in oğlıdır və o da "Müəyyəd"in oğlıdır. "Nizami" onun şeirdə işlətdiyi təxəllüsüdür və ona görə də ancaq "Nizami" demək ilə şöhrət tapmışdır. Səksən altı sənə ömr etdiginə cəhət də "Şeyx"lik ləqəbini alub, "Şeyx Nizami" adlanubdur[2*]. Məhəmməd adlı oğlu olduğundan ona "Əbu Məhəmməd" dəxi deyərlərimiş. Məhəmmədin atası deməkdir. Öz "Xəmsə"sinin neçə yerində həmin Məhəmməd adlı oğluna xitabən və`z və nəsihət etmişdir. Şeyx Nizaminin təvəllüdü hicrətin 520-ci ilində vaqe olmuşdur[3*]. Özü alim, fazil və həm sair bir zat olub, elm və məarifi artıcaq dust dutarmış. Necə ki, oğluna etdigi və`z və nəsihətdən anlaşılır.

Nemsə[4*] ədiblərindən məşhur "Müller" özünün "Tarixi-islam" kitabında[5*] fars şairlərini tənqid etdiyi yerdə türk şairlərinə kecüb Şeyx Nizamini tərif və təhsin edüb, Firdovsidən sonra əvvəlinci şair hesab edir.

Habelə ədibi-şəhir "Şerr" özünün "Tarixi-ədəbiyyati-

ümumi”sində[1*] mərhum Şeyx Nizami barəsində diyor ki, “Şeyx Nizami öz vətəni olan Gəncədə 1180-ci ildə vəfat edübdir”.[2*] Sonra ədib müşarileyh “Şerr” Şeyx Nizaminin “Xəmsə”si, yəni divanı[3*] barəsində bəhs edüb diyor ki: “Ədəbiyyatda Şeyx Nizaminin xidməti həmnou`lərinin[4*] arasında bu cəhətdən artıq təqdir və təhsin olunmalıdır ki, Şeyx öz şeirlərində müsəlman övrətlərinin kənizlər mənziləsində yaşamaqlarını nəzərə alub onların bu fəna haldən nicat tapmaqlarına tərəfdar olmağını öz şeirlərində bəyan etmişdir. Şeyx Nizaminin kəlamı nəzm cəhətincə xeyli şirin və gözəl oldığı kibi oxunduqca dəxi xalis insaniyyət hisslərini oyadır. Şeyx Nizami Şərq ədiblərinin əvvəlincilərindən hesab olunar, çünki şeirlərinin cümləsi məziyyəti-şeiriyyə cəhətincə ən gözəl kəlamlar olduğu kibi hissiyyati-həqiqiyyə ilə dəxi doludur»[5*].

Şeyx Nizami cəmaət ilə bir o qədər xəltə etməz imiş və həmişə ömrini guşənişinlikdə keçirərmiş. Maliyyə cəhətincə çoq fəqir və biçiz imiş[6*]. Həmişə zəmanədən və əhli-zəmanədən şikayətçi olubdur. Zəmanəsində onun əşarını nəinki təqdir etmiyorlar imiş, hətta anlaşıldığına görə ehtiramsızlıq da edirlərmiş[7*]. Və buna cəhət də əş`arının əksər yerində cəmaətdən narazılıq edübdir. Əş`arının çoxusu hikməti havi olduğundan həkimlik[8*] ləqəbini dəxi qazanmışdır. Və ona görə də ona “Həkim Ni-

zami” deyə söyləmişlər. Həqiqətdə də həkim kimsənə imiş. Qabiliyyəti–şeiriyyəsinə heç bir söz yoxdur. Birinci dərəcə şairlərin cümləsindən hesab olunmaqdadır. Zəmanəsinin padşahları kəndisinə nəhayət dərəcədə ehtiram edirlərmiş. Bununla belə, bu da başqa şairlər kimi ömrini padşahlara, üməra`yə və əğniyayə təməllüq edüb, məddahlıqda keçirməyibdür. Bir neçə yerdə divanında padşahlara mədh yazubdursa da, o biri şairlər kimi həddindən artırmuyubdur və bəlkə həman mədhi padşahlara nəsihət və moizədən ibarət olubdur. Necə ki, padşahi-əsri olan Nüsrətəddinə[1*] xitabən söylüyor:

سپارندۀ پادشاهی بتو[2*]
سپرد از جهان هر چه خواهی بتو
بدان داد ملکت که شاهی کنی
چو داور شوی دادخوهی کنی
نه بازی کند بر پر پشه زور
نه پیلی نهد پای بر پشت مور

Separendeye-padşahi beto, [3*]
Sepord əz cəhan hər çe xahi beto.
Bedan dad molkət ke şahi koni,
Ço davər şəvi dadxahi koni.

Nə bazi konəd bər pəre-pəşşe zur,
Nə pili nəhəd pay bər poşte-mur.[1]

"Padşahlardan ehtiram görərdi", – dedikdə özgələri kimi padşah məclisində bulunmağa bu, özi talib və rağib degilmiş, bəlkə padşahlar bunun söhbətindən xoşlanub, ondan bir istifadə etmək istərlərmiş. Necə ki, "Qızıl şah"[1*]o zaman gəlüb, Gəncənin otuz ağaclığında düşəndə əvvəlimci xəyali Şeyx Nizami ilə görüşüb, onunla söhbət etmək olur və buna cəhət də adam göndərüb, Nizamini hüzurinə istiyor. Bu, o vəqt olur ki, Nizami s"Xosrov Şirin" nam eşqli bir hekayəsini (romanını) tazəcə təmam edübmiş.

Nizami padşahın dəvətini qəbul edüb, hüzurinə azim olur. Bu vəqt padşah öz məxsusi çadırında öz müqərrəblərilə eyşü işrətə məşğul imiş və məclisə şərab düzülübmüş. Nizaminin gəlmək xəbərini eşitcəyin "onun söhbəti bizim bu məclisimizdən ləzzətlidir", - deyüb padşah həm Nizamiyə ehtiramən həman saət şərab büsatını yığmağa əmr edir.

Necə ki, öz "Xəmsə"sində padşahın dilindən diyor:

---

[1] Padşahlığı sənə tapşıran (Allah) dünyada hər nə xahiş etdinsə verdi. Məmləkəti sənə onun üçün verüb ki, padşahlıq edüb xəlqin dadinə yetişəsən. Böylə ki, bir qızıl quş bir milçəkin qanadinə də zur gətürə bilməyüb, bir fil də bir qarıncanı basub əzməsün.

نوای نظم اوبهتر ز روداست
همه گفتار او یکسر سروداست
چو خضر آمد ز باده سر بتابیم
که آب زندهگی از خضر یابیم

Nəvaye-nəzme-u behtər ze rudəst
Həme-qoftare-u yeksər sorudəst
Ço Xızr aməd ze bade sər betabim
Ke abe-zendegi əz Xızr yabim. [2]

Sonra məclisi məxsusi eyləyüb, Nizamini hüzurinə istəyüb, sübhdən axşamə kimi söhbət eliyorlar və bu əsnadə padşahın xahişinə görə tazə yazdığı "Xosrov Şirin"i oxuyur. "Xosrov Şirin" padşahın nəhayət dərəcədə xoşinə gəlür. Həman saət əmr edir ki, bir dəst xələt "Nizami" əleyhirrəhməyə verirlər və "Həmdaniyan"[2*] kəndini dəxi ona bağışlıyub, adına qəbalə etdirir.

Şeyx Nizaminin əsərlərindən bu haldə əldə olan onun "Xəmseye-Nizami" deməkilə məşhur olan beş kitabıdır. Onlar da:

"Məxzənül-əsrar", "Leyli və Məcnun", "Xosrov Şirin", "Həft peykər", yaxud "Bəhramnamə" və "İskəndər-

[2] Nizaminin nəzminin nəvası çalğıdan yaxşıdır və onun sözləri şadlıq gətürəndir. Xızr ki, gəldi, ayılub dirilik suyunu ondan istəməlidir[1*].

namə” adlı mənzumələrindən ibarətdir[1*]. Bunlardan başqa, söylənildiginə görə, igirmi min beytə baliğ sair qəsidələri, ğəzəlləri və başqa əş`arı dəxi var imiş: əmma bunların əksəri nabuddur, şu iki beyt onun əş`ari-namət-bu`əsinin cümləsindəndir:

گر همه جلاب باشد آب جوی کس مخور
ور همه تسبیح باشد نقش نان کس مخوان
چونکه آب دیده داری از ضعیفی باک نیست
زانکه مروارید را باریک بهتر ریسمان[2*]

Gər həme collab başəd abe-cuye-kəs məxor,
Vər həme təsbih başəd nəqşe-nane-kəs məxan
Çonke abe-dide dari əz zəifi bak nist,
Z`anke mirvarid ra barik behtər risman. [3]

Şeyx Nizaminin “Məxzənül-əsrar” nam kitabına gəldikdə başdan-ayağa hikmət və əxlaqi-həsəne ögrədən mütəəddid mənzum hekayələrdən ibarətdir. Bu kitabın ibtidasinə hansı tarixdə şüru` edübdür və nə vəqtdə təmamə yetürübdür, orası dürüst məlum olmuyor. Ancaq kita-

[3] Əgər gülab da olmuş ola, bir kəsin arxının suyunu içmə, hamısı təsbih də ola, bir kəsin çörəyini tərif etmə[3*]**.** Göz yaşın ki, vardır zəiflikdən bak etmə; Çünki, mirvarid içün ip nazik olsa, yaxşıdır.

bın axırında kitabın etmamə yetdiginə dair bir belə tarix yazubdur.

پای ز سر کرد بلب در فشاند
مخزن اسرار بپایان رساند
بود حقیقت بشمار درست
بیست چهارم ز ربیع نخست
از گه هجرت شده تا این زمان
پانصد و سال دگر افزون بر آن

Pay ze sər kərd be ləb dor feşand,
Məxzəne-əsrar be payan rəsand,
Bud həqiqət be şomare-dorost
Bisto çəharom ze rəbi`e-noxost.
Əz gəhe-hecrət şode ta in zəman
Pansədo sale-degər əfzun bər an. [4]

Beş yüzdən nə qədər artıq olduğu məlum degildir, halbuki, beş yüz iyirmi tarixdə özü təvəllüd etmişdir. Ancaq sonra diyor ki:

[4] Fikrə gedüb dodağından dürr saçdı və "Məxzənül-əsrar"ı axıra yetürdi. Dürüst hesab ilə rəbiül-əvvəlin iyirmi dördü idi. Hicrətdən də bu zəman beş yüz ildən artıq keçmiş idi.

شکر که این نامه بعنوان رسید
بیشتر از عمر بپایان رسید*[1]

Şokr ki, in name be onvan rəsid
Biştər əz omr be payan rəsid. [5]

Nizaminin bu beytindən anlaşıldığına görə, “Məxzənül-əsrar”ı ömrünün çoxu getmiş yazubdur və bu tövzihatə görə, bu kitabı beş yüz yetmiş tarixlərində yazmış olur. Lakin rəvayətlərə görə, “Məxzənül-əsrar”ı Fəxrəddin Bəhram şah Qəznəvi adına yazubdur. Necə ki, kitabçada həman padşahın mədhindən sonra belə diyor:

نامه دو آمد ز دو ناموسکاه
هر دو مسجل بدو بهرامشاه
بر همه شاهان ز پی این جمال
قرعه زدم نام تو آمد بفال

Name do aməd ze do namusqah,
Hər do mosəccəl be do Bəhram şah
Bər həme şahan ze peye-in cəmal
Ğor'e zədəm name-to aməd befal. [6]

[5] Şükr ki, bu namə təmam oldu və ömrdən çoxu getmişdir.

Həmin Fəxrəddin Bəhram şah hicrətin 547-imci sənəsində vəfat edübdür. Bu tövzihatə baxanda belə məlum olur ki, “Məxzənül-əsrar”ı Şeyx Nizami əleiyhirrəhmə cəvan ikən, yəni iyirmi beş-iyirmi altı sinnində olan halda yazubdur. “Məxzənül-əsrar” kitabı iki min iki yüz əlli beyti havidir.

“Xosrov Şirin” nam kitabına gəldikdə bu, suzişli və eşqli bir hekayədir. Bu kitabı nəzm etməkliyinin səbəbini özü belə rəvayət eliyor:

“Bir gün dustlərimdən biri məni görməgə gəlmişdi, söhbət arasında həmin dustum mənə itab və xitab edüb tövhiddən bir şey yazmağımı xahiş elədi. Mən də bunun cəvabının müqabilində “Xosrov Şirin” əhvalatını buna nəql etməyə başladım. Belə şirin bir hekayəni məndən eşitdikdə, dustum təhsin eliyüb, əvvəlki fikrindən dəgişirilüb, həmin hekayəni nəzmə çəkməyimi xahiş elədi. Bunun xahişinin müqabilində nə qədər üzr gətürdimsə, qəbul etmiyüb, öz sözündə israr elədi. La əlac qalub, iltimasını qəbul elədim» [2*].

Həmin hekayədə Şeyx Nizami əleyhirrəhmə məhəbbət riştəsinə gövhər düzübdür, deyilsə, səzadır. Əşxası lazımınca təsvir eliyübdür. “Şirin”in aşiqi olan Fərhadın söz-

[6] İki əhli-namusdan iki kağız gəldi və hər ikisi də Bəhram şah idi. Cümlə padşahların adına bu barədə ğor`e atdım, sənin adın çıxdı[1*].

lərini oxuduqca insanın qəlbinə od saçub yandırır. Necə ki, Fərhadı Kuhi-Bisitunda Şirinin eşqində söylədüb diyor:

ز عشقت سازم و میسوزم از دور
که پروانه ندارد طاقت نور

به بخت من کس از مادر مزایاد
بروز من ستاره بر میایاد
اگر در تیغ دوران رحمتی هست
چرا برد ترا ناخن مرا دست
اگر عدل است در دریا و در کوه
چرا تو شادمانی من در اندوه
اگر بی میل شد پستان گردون
چرا بخشد ترا شیر و مرا خون

Ze eşqət sazəm o misuzəm əz dur,
Ke pərvane nədarəd taqəte-nur.
Be bəxte-mən kəs əz madər məzayad,
Beruze-mən setare bər məyayad,
Əgər dər tiğe-douran rəhməti həst
Çera bərrəd tora naxon məra dəst.
Əgər ədl əst dər dərya vo dər kuh,
Çera to şadmani mən dər ənduh.

Əgər bi meyl şod postane-gərdun
Çera bəxşəd tora şiro və məra xun.[7]

"Xosrov Şirin" hekayəsinin tarixi-nəzminə gəldikdə "Məxzənül-əsrar" qədəri müşkülatə uğraşmıruq. Çünki kitabın axırında özü bizə bu barədə məlumat verüb söylüyor:

گذشته پانصد و هفتاد شش سال
نزد برخط خوبان کس چنین فال [1*]

Qozeşte pansədo həftado şeş sal
Nəzəd bərxətte-xuban kəs çenin fal. [8]

Buna görə "Xosrov Şirin" 576-mcı tarixi-hicridə[2*] yazılmış olur. Bu kitab altı min doqquz yüz iyirmi beyti havidir.

"Leyli və Məcnun" nam kitabçası dəxi 4468 beyti ha-

[7] Kənardan eşqinə dayanub yanuram. Çünki pərvanənin nurə taqəti yoxdur. Mən bəxtdə heç kəs anadan olmasun. Mən gündə heç bir yulduz çıxmasun. Əgər zəmanənin qılıncında rəhm olseydi, sənin dırnağını və mənim əlimi kəsməzdi. Əgər dağlarda və dəryalərdə ədalət olseydi, sən şad olub, mən ğəmgin olmazdım. Zəmanənin məmələri meylsiz olmaseydi, sən süd və mən qan əmməzdim.

[8] Beş yüz yetmiş altı il keçmişdi və gözəllərin yüzünə kimsə belə fal açmamışdı.

vi eşqli bir hekayədir. Bunun səbəbi-nəzminə gəldikdə özü bu gunəcə söylüyor:

“Bədənim zəifləmişdi. Özüm də qocaldığıma cəhət daha nəzm demək xəyalindən düşüb rahətlik guşəsinə çəkilmək istiyordum. Bu vəqtlər Şirvanşahdan bir qasid gəlüb mənə kağız gətürdi. Kağızı açub oxuduqda gördim ki, padşah yazub “Leyli və Məcnun” hekayəsini nəzmə çəkməyi məndən xahiş edübdir. Bu kağızı oxuduqda əhvalım pərişan oldu.

Çünki:

نی زهره که سر ز خط بتابم
نی دیده که ره بکنج*[1] یابم
سرگشته شدم بدان خجالت
از سستی عمر و ضعف حالت

Ni zəhre ke sər ze xət betabəm
Ni dide ke rəh begənc yabəm
Sərgəşte şodəm bedan xəcalət
Əz sostiye-omr o zə`fe-halət.[9]

[9] Nə hökmdən baş qaçırmağa cürətim var idi, nə guşəyə çəkilməyə qüdrətim[2*]. Zəiflikdən və süsti-bədəndən sərgəştə və xəcalət oldum.

Bu işdən oğlum Məhəmməd xəbərdar oldıqda o da başlıyub bu əmri yerinə yetürməyi məndən iltimas elədi. Mən də çox fikirdən sonra labüd qalub kitabə şüru` elədim”.

Bu kitabın tarixi-nəzminə gəldikdə əlimizdə olan məlumat qabaqkından artıqdır. Belə ki, o cənab özü “Səbəbi-nəzmi-kitab” sərlövhəli nəzmlərində söylüyor.

این چار هزار بیت اکسر
شد گفته بچار ماه کمتر
گر شغل دگر حرام بودی
در چارده شب تمام بودی
کارسته شد به بهترین حال
در سلخ رجب بثاء فا دال
تاریخ عیام که داشت با خود
هشتاد چهار بعد پانصد

İn çar hezar beyt əksər
Şod qofte beçar mah kəmtər,
Gər şoğle-degər həram budi,
Dər çardəh şəb təmam budi
K`araste şod be behtərin hal
Dər solxe rəcəb be sa fa dal.

Tarixe-əyyam ke daşt ba xod
Həştad o çəhar b'əd pansod.[10] [1*]

Şeyx Nizaminin bu şeirləri nəzərə alındıqda məlum olur ki, "Leyli və Məcnun" hekayəsinin nəzminə rəcəbül-mərcəb ayının otuzuncu günü, tarixi-hicrətin beş yüz səksən dördüncü ilində[2*] şüru` edilmişdir. Və çünki, həmin hekayəni dört aydan bir az əksikdə təmam edübdür. Demək olur ki, həman ilin ziqə`də ayının[3*] axirlərində təmamə yetübdür. Bu hesab ilə hər gündə qırx beyt demiş olur. Lakin kitabın axirində dediyi iki beyt nəzərə alındıqda iş bir az müşkülə düşür, çünki oradə hekayəni bu iki beyt ilə təmam edüb diyor:

در روز دوشنبه آمد آخر[4*]
از لطف خدای فرد قاهر
در پانصد سال سی و بر سر
بگذشته ز هجرت پیمبر

Dər ruze-doşənbe aməd axer,
Əz lotfe-xodaye-fərde-qaher.

[10] Bu dörd mindən artıq olan şeirlər dörd aydan əksikə başa gəldi. Hərgah başqa işim olmaseydi, on dörd gecədə təmam olardı. Əhvalımın yaxşı vəqtində təmam oldu. Rəcəbül-mərcəb ayının otuzuncu günü idi və hicrətdən də beş yüz səksən dört il keçmişdi.

Dər pansəd sal si yo bər sər
Beqozəşte ze hecrəte-Peyəmbər.[11]

Bu beytlər qəbul olunduqda "Leyli və Məcnun" hekayəsinin etmamı tarixi-hicrətin beş yüz otuzuncu ilində[1*] olmuş olur, lakin burası bir az məhəli-təəmmüldür. Çünki əvvəl qabaqda söylənildiyi üzrə, Şeyx Nizaminin təvəllüdü hicrətin beş yüz iyirminci ilindədir və bu surətdə "Leyli və Məcnun" hekayəsini on yaşında nəzmə çəkmiş olur. Və bu da mümkün degildir. İkinci kitaba şüru` edəndə yazdığı tarix ilə düz gəlmiyor və üçüncüsü, tərtibə baxanda həmin kitabı "Məxzənül-əsrar" və habelə "Xosrov Şirin"dən sonra yazubdur. Və necə ki, qabaqda ərz olundu, "Məxzənül-əsrar" 545-546 tarixlərində və "Xosrov Şirin" 576-cı tarixi-hicridə etmamə yetişübdür. "Leyli və Məcnun" onlardan sonra nəzmə çəkildiyi yəqindir: Çünki bunun səbəbi-nəzmində yazdığı əş`arda oğlunun dilindən özünə xitabən belə söylüyor:

فرزند محمد نظامی
آن بر دل من چو جان گرامی
داد از سر مهر پای من بوس
کای آنکه زدی بر آسمان کوس

[11] Allah-təalanın qüvvət və ğüdrəti ilə şənbə günü təmam oldu. Hicrəti-Peyğəmbərdən həm beş yüz otuz il keçmişdi.

خسرو شیرین چه یاد کردی
چندین دل خلق شاد کردی
لیلی مجنون ببایدت کفت
تا گوهر قیمتی شود جفت

Fərzənde-Məhəmməde-Nizami
An bər dele-mən ço can gerami,
Dad əz səre-mehr paye-mən bus
Key anke zədi bər aseman kus
Xosrov Şirin çe yad kərdi,
Çəndin dele-xəlq şad kərdi,
Leyli-Məcnun bebayədət qoft,
Ta qouhəre-qiyməti şəvəd coft.[12]

Bu əş`ar "Leyli Məcnun"un "Xosrov Şirin"dən sonra nəzmə çəkildiyini ap-açıq göstərir. Bu surətdə də ikinci tarix, yəni "Leyli Məcnun"un beş yüz otuzuncu ildə etmamə yetməyi dürüst olmuyor. Bu tövzihatdən demək olur ki, ikinci tarixdə səhv vardır.

Nizami əleyhirrəhmənin "Həft peykər", yaxud "Bəhramnamə"sinə gəldikdə, bu da qabaqkılar kimi eşqli bir hekayədir ki, 4888 beyti havidir.

[12] Mənim canımdan əziz olan oğlum Məhəmməd ayağımdan öpüb dedi: "Ey şöhrəti göylərə çıxan! "Xosrov Şirin"i yazub xəlqin yürəyini şad elədin. İndi "Leyli və Məcnun"u yaz ki, bu qiymətli gövhər coft olsun".

Bu kitabda həm Şeyx Nizami öz ustadlığını zahirə yetürmişdür. Bu kitabın tarixi-etmamı barəsində özü müşkülatı həll edüb kitabın xatiməsində bu gunəcə söylüyor:

از پس پانصد و نود سه قران
گفتم این نامه را چو نامه دران [1*]
روز بر چارده ز ماه صیام
چار ساعت ز روز رفته تمام

Əz pəse-pansəd o nəvəd se qeran
Qoftəm in name ra ço namedəran.
Ruz bər çardəh ze mahe-seyam
Çar saət ze ruz rəfte təmam.[13]

Bu iki beyt "Həft peykər" nam kitabın etmamə yetmək tarixini ap-açıq söylüyor, belə ki, tarixi-hicrətin beş yüz doqsan üçüncü ilində rəməzanül-mübarək ayının on dördüncü günündə[3*] sübhdən dört saət keçmiş etmamə yetişübdür, hərçənd kitabın tarixi-ibtidası məlum degildir, əmma tarixi-intəha`sında ixtilafə uğramıyoruq.

Şeyx Nizaminin "İskəndərnamə"sinə gəldikdə, bu, iki kitabdan ibarətdir: birisi "Şərəfnamə - İskəndərnamə" və o birisi "İqbalnamə - İskəndərnamə"dir.

[13] Beş yüz doqsan üçüncü tarixdə bunu təmam etdim. Rəmazan ayının on dördü və sübhdən dörd saət keçmişdi[2*].

"Şərəfnamə - İskəndərnamə" 6083 beyti havidir.

Bunun tarixi-etmamı barəsində bizə kitabın axırında belə məlumat verir:

بتاریخ پانصد نود هفت سال
که خواننده را زو نکیرد ملال
نوشتم من این نامه را در جهان
که تا دور آخر بود جاودان

Be tarixe-pansədo nəvəd o həft sal
Ke xanənde ra zu nəgirəd məlal.
Neveştəm mən in name ra dər cəhan
Ke ta doure-axer bovəd cavedan.[14]

Pəs bundan anlaşıldığına görə, həmin kitabı beş yüz doqsan yeddinci ildə[1*] etmamə yetürübdür.

"İqbalnamə - İskəndərnamə" dəxi 3542 beyti havi olub əvvəlimcinin, yəni "Şərəfnamə-İskəndərnamə"nin müsənna[2*] və ya başqa təbir ilə ikinci cildidir. Bu kitabın tarixinə gəldikdə bu barədə əlimizdə heç bir məlumat yoxdur. Ancaq burası məlumdur ki, həmin kitabı "Şərəf-namə"dən sonra nəzm edübdür.

[14]Beş yüz doqsan yeddi tarixdə ki, oxuyan içün məlal gətürməsün, mən bu naməni yazdım ki, dünyadə axırıncı zəmanədək həmişəlik qalsun.

Şeyx Nizami əleyhirrəhmənin həmin beş kitabı dəfə-at ilə təb` olunubdur. Və hətta "Müsyö Şarmua"[1*] tərəfin-dən fransızcaya tərcümə olunub, 1845-ci tarixi-Məsihi-də[2*] "Petersburğ"da[3*] təb` və nəşr olunmuşdur.

Şeyx Nizaminin vəfatı tarixi-hicrətin 606-ncı ilində[4*] vağe olmuşdur. Ömrü səksən altı sənədir[5*]. Vəfatı Gəncə-də olub, qəbri köhnə şəhərdə və indiki şəhərdən yeddi verst kənardadır. Qəbri və üstünün künbədi hər bir insa-nın qəlbinə qanlar axıdacaq dərəcədə xərabədir. Belə ki, qabaqdan iki tərəfi təmam uçmuşdu. İnsaniyyətdən bixə-bər kəndçilər qışda savuqdan və yayda istidən daldalan-maq üçün içinə at və eşşək bağlıyordular, əmma indi tə-mam uçduğundan bu işə də yaramıyor. Bu günə qabil, həkim və fazil bir şairin qəbrini və künbədini təmir etmək hər bir "insanəm" - diyən şəxsin vəzifəsidir.

پس از صد سال اگر گویی کجا او
ز هر بیتی ندا خیزد که ها او

Pəs əz səd sal əgər quyi koca u
Ze hər beyti neda xizəd ke ha u![6*]

یول کناریندە بر مزار حقیر
داغیلوب، کنبدی اولوب ویران
اونه مخلوقدن اولور تحقیر

باغلانور کنبدینه هر حیوان
منظری آدمه ایدیر تأثیر
آخیدیر قلبه هر دقیقه ده قان
کیمسه ایتمز سؤال کیمدر بو
اونا قوشلار اولوبدی فاتحه گو

بو خرابه مزارده آیا
گوره سن کیمدی بیله خوار یاتیر
کیمسه ایتمز بونی سؤال اصلا
سیزه من ایلیوم اونی تقریر
ایده سیز اولمزاری سیز اما
لایقنجه عزیزلر تعمیر
او یاتان گنجلی نظامیدیر
شعرا قسمینک عظامیدر.

Yol kənarində bir məzari-həqir,
Dağılub, künbədi olub viran.
Onə məxluqdən olur təhqir
Bağlanur künbədinə hər heyvan.
Mənzərə adəmə edir təsir,
Axıdır qəlbə hər dəqiqədə qan.
Kimsə etməz sual: Kimdir bu?
Ona quşlar olubdu fatihəqu.

Bu xərabə məzardə, aya,
Görəsən kimdi böylə xar yatır?
Kimsə etməz bunu sual, əsla,
Sizə mən eyləyüm onu təqrir
Edəsiz ol məzarı siz əmma
Layiqincə əzizlər, təmir.
O yatan Gəncəli Nizamidir,
Süəra qisminin ezamidir.

Son

Fevral 25 sənə 1909.

İZAHLAR VƏ ŞƏRHLƏR

Səh. 37

[1*] "Difai" - 1905-ci ildə erməni daşnaklarına qarşı mütəşəkkil mübarizə aparmaq üçün yaranan təşkilat. Bakıda yaransa da, onun ilk bölgə təşkilatı Gəncədə fəaliyyət göstərmişdir. Təşkilatın ən fəal üzvləri Əhməd bəy Ağayev, Ələkbər Rəfibəyli, Axund Məmməd Pişnamazzadə, Mirzə Məhəmməd Axundov və başqaları idilər.

Səh. 42

[1*] Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan əsərlərin yazılma ardıcıllığı belədir: "Məxzənül-əsrar", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Həft peykər", "İskəndərnamə".

Səh. 72

[1*] Müasir Azərbaycan dilində **"günbəz"**dir. Günbəz – dairəvi, çoxbucaqlı və ellipsvarı bina və qurğuların üstünü örtmək için istifadə edilən yarımkürə şəklindəki memarlıq və mühəndislik elementidir. Əsərdə "məqbərə" anlamında işlənmişdir.

Səh. 76

[1*] Mirzə Mehdi Naci (1805-1882) – XIX əsr Azərbaycan şairidir. Gəncədə yaşayıb-yaratmışdır. Naci "Divani-hikmət" məclisinin fəal üzvlərindən olmuş, şair və nəqqaş-xəttat kimi tanınmışdır.

[2*] Əsərdəki şəxs adları dırnaq işarəsində verilmişdir. Biz də orijinala sadiq qalaraq, bu qaydanı pozmadıq.

Səh. 77

[1*] Nizamişünaslıq elmi və xüsusilə, şairin əsərlərinin daha qədim əlyazmalarının tədqiqi Nizami Gəncəvinin soykökünün Gəncədən olduğunu qəti təsdiq edir. Nizami Gəncəvinin babalarının Qum əhlindən olması fikri kökündən yanlışdır və şairin "İskəndərnamə" poemasının II hissəsi olan "İqbalnamə"nin əlyazmasının XV əsrdə köçürülmüş nüsxələrində təəssübkeş fars katibləri tərəfindən əlavə edilən ilhaqi misralardan qaynaqlanır. Poemanın daha qədim əlyazmalarında həmin misraların olmaması da bu faktı bir daha təsdiqləyir. Yəni əslində Nizaminin əsərlərinin heç birində soykökünün Qumla əlaqəsinə işarə belə, yoxdur. Bu barədə bax: Y.Bertels. Böyük Azərbaycan şairi Nizami (Epoxası, həyatı, yaradıcılığı). Bakı, EA Azfil Nəşriyyatı, 1940. Səh. 26; H.Araslı. Şairin həyatı. Bakı, Azərbaycan LKGI, Uşaqgəncnəşr, 1940;

X.Yusifli. Səkkiz yüz ilin qaynaqları Nizami haqqında. // "Nizamişünaslıq". AMEA Gəncə bölməsinin elmi əsərləri. № 2. Gəncə, "Elm" nəşriyyatı, 2012. Səh. 13-23 və s.

[2*]Təbii ki, Nizami Gəncəvinin şeyxlik mərtəbəsinə yüksəlib "Şeyx" adlandırılması onun 86 il (əslində, 67-68 il!) ömür sürməsi ilə əlaqədar deyildir. Şair misilsiz söz ustası olmaqla yanaşı, dini və dünyəvi elmləri dərindən bilmiş, kamil bir filosof olmuş və "Şeyx" adını almışdır.

[3*] hicri 520-ci il miladinin 1126-cı ilinə təsadüf edir. Lakin şairin öz əsərləri və onun haqqında ən yaxın müasirlərinin məlumatlarına əsasən Nizami Gəncəvinin 1141-ci ildə anadan olduğu müəyyənləşdirilmişdir və bu tarix dünya şərqşünaslığı tərəfindən şairin doğum tarixi kimi qəbul edilmişdir.

[4*] Nemsə - alman.

[5*] XIX əsrin tanınmış alman ərəbşünas alimi Fridrix Avqust Müllerin (1848-1892) məşhur "İslam tarixi" əsəri nəzərdə tutulur.

Səh. 78

[1*] XIX əsr alman ədəbiyyat tarixçisi İohan Şerrin (1817-1886) "Ümumi ədəbiyyat tarixi" əsəri nəzərdə tutulur. Onu da qeyd edək ki, X.Məmmədov "Şeyx Nizami" əsərini "Ana sözü" jurnalında (1992, № 1-2) kirill

əlifbası ilə dərc etdirərkən M.M.Axundovun kitabında "شه رر" kimi qeyd olunan "Şerr" sözünü yanlış olaraq "Şerrer" kimi oxumuşdur.

[2*] Çox təəssüf ki, müəllif (Mirzə Məhəmməd Axundov) alman şərqşünası Şerrin bu qeydinə heç bir münasibət bildirmir. Belə ki, şairin məzar daşının üzərində yazıldığına görə, o, "dörd ramazan altı yüz beş hicri ilində" (12 mart 1209-cu il) dünyasını dəyişmişdir və nizamişünaslıq elmi bu tarixi Nizami Gəncəvinin ölüm tarixi kimi qəbul etmişdir.

[3*] Məlumdur ki, Şərq ədəbiyyatında "Divan" deyərkən lirik şeirlər toplusu nəzərdə tutulur. Əsasən "Dibaçə" (müqəddimə) ilə başlayan "Divan"larda şeirlər, klassik poeziyanın janrları üzrə və rədifin başlanğıc hərfinin ərəb əlifbasındakı sırası ilə düzülürdü.

[4*] Həmnou`ləri (həmnövləri) – burada həmcinsləri (insanlar) mənasında işlənmişdir.

[5*] Əsərdə gətirilən sitatların yeri göstərilmir.

[6*] Müəllifin şairin "çoq fəqir və biçiz" (çox yoxsul) olmasına dair fikirləri şübhə doğurur. Çünki Nizami Gəncəvinin əsərlərinin tədqiqi və öyrənilməsi göstərir ki, şair dövrünün elmlərinə yüksək səviyyədə yiyələnmişdir. Bu isə təbii ki, Nizaminin fitri istedadı ilə yanaşı, aldığı mükəmməl təhsilin də bəhrəsi idi. Bunun üçün isə, onun böyüdüyü ailənin maddi imkanları yaxşı olmalı idi. Bundan

əlavə, Nizaminin ailəsinin, xüsusilə də dayısının saraya yaxın olması tarixi faktlar əsasında sübuta yetirilmişdir. Sadəcə, şair çox sadə və dəbdəbədən uzaq bir həyatı sevmişdir ki, bunu onun əsərlərindəki qeydləri də təsdiq edir. M.Ə.Rəsulzadə də bu barədə yazır: "Nizami təvazökarlıq və qənaətə riayət edərək zahidanə sadə bir həyat tərzilə yaşamışdır. Təvazökarlıq Nizami həyatının ana xətti olmuşdur. ... Nizami bütün poemalarını Gəncədəki "dərvişxanə"sinin dörd divarı arasında, kimsədən bir şey ummadan yazmışdır". *(Məmməd Əmin Rəsulzadə. Azərbaycan şairi Nizami. Bakı, "Çıraq" nəşriyyatı, 2008. səh. 57).*

7* Çox güman ki, M.M.Axundov Nizami Gəncəvinin əsərlərində yer alan zəmanədən və zəmanə əhlindən şikayət ifadə edən fikirlərindən dolayı bu qənaətə gəlmişdir. Müəllifin işlətdiyi "anlaşıldığına görə" ifadəsi də bu fikrin ancaq bir ehtimal olduğunu təsdiqləyir. Əslində isə hələ sağlığında Nizami Gəncəviyə, onun yaradıcılığına istər dövrün hökmdarları, istərsə də elm-irfan sahibləri, söz və sənət adamları yüksək qiymət vermiş, əsərdə ("Şeyx Nizami") də göstərildiyi kimi, ona "Həkim Nizami", "Şeyx Nizami", - deyə müraciət olunmuşdur.

8* "Həkim" sözü burada "mütəfəkkir, filosof, bütün elmlərə dərindən bələd olan adam" mənasını daşıyır.

Səh. 79

[1*] X.Məmmədov bu adı (نصرةالدين) "Nüsrətüləddin" kimi oxumuşdur.

[2*] Müəllif Nizami Gəncəvinin əsərlərindən gətirdiyi nümunələrin hansı mənbə və ya nüsxədən götürüldüyünü göstərmir.

[3*] Əsərin orijinalı ərəb qrafikalı əski Azərbaycan əlifbasında olduğundan bədii nümunələrin transkripsiyası verilməmişdir. Şairin əsərindən gətirilən parçaların transkripsiyası tərtibçiyə məxsusdur.

Səh. 80

[1*] Qızıl Arslan nəzərdə tutulur.

Səh. 81

[1*] Burada beytin hərfi tərcüməsi deyil, mənası verilmişdir. Əslində hərfi tərcümə belə olmalı idi: Onun (Nizaminin) nəzminin nəvası ruddan (rud nəvasından) yaxşıdır, Onun sözlərinin hamısı əvvəldən axıra kimi nəğmədir. Elə ki, Xızr gəldi badədən başımızı qaldıraq (ayılaq) ki, dirilik suyunu Xızrdan istəyək.

[2*] Əslində Nizami Gəncəviyə bağışlanılan kəndin adı "Həmdüniyan"dır. M.M.Axundovun əsərində "حمدانيان" yazılıb.

Səh. 82

[1*] Burada Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan poemaların sırası pozulmuşdur: Poemaların yazılma ardıcıllığı belədir: "Məxzənül-əsrar", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Həft peykər", yaxud "Bəhramnamə" və "İskəndərnamə".

[2*] Bu beytlər Nizaminin "Xeyli-xanə" adlanan qəsidəsindən götürülmüşdür.

[3*] Misranın hərfi tərcüməsi: hamısı təsbih (dua) də olsa, bir kəsin çörəyinin naxışını oxuma.

Səh. 84

[1*] "Məxzənül-əsrar"ın elmi-tənqidi mətnində (نظامی گنجوی. مخزن الاسرار. متن علمی و انتقادی بسعی واهتمام عبدالکریم علی اوغلی علی زاده. ب. نشریات فرهنگستان علوم جمهوری آذربایجان. ۱۹۶۰) "**بیشتر**" (biştər – daha çox) deyil, "**پیشتر**" (piştər – qabaq, əvvəl) yazılmışdır (s. 248) ki, məzmuna da məhz bu söz uyğun gəlir və beləliklə, beytin tərcüməsi belə olmalıdır: "Şükr ki, bu namə (əsər) ömr sona çatmazdan əvvəl ünvanə yetişdi". Qeyd edək ki, poemanın filoloji tərcüməsində (Nizami Gəncəvi. Sirlər xəzinəsi. Filoloji tərcümə, izahlar, şərhlər və lüğət professor Rüstəm Əliyevindir. Bakı, Qanun Nəşriyyatı, 2014, 328 səh.) də həmin beyt "Şükürlər olsun ki, bu kitab ünvanına çatdı, /

Ömür sona çatmamış (kitab) sona yetdi” (s. 234) – kimi çevirilmişdir.

Səh. 85

[1*] Bu parçanın da tərcüməsində bir qədər qeyri-dəqiqliyə yol verilmişdir. Əslində belə olmalıdır: “İki əhli-namusdan iki namə (əsər – şair Sənai Qəznəvinin Qəznə hakimi Bəhram şaha təqdim olunmuş “Hədiqətül-həqiqə” (“Həqiqətlər bağçası”) əsərinə və özünün Ərzincan hakimi Davud oğlu Məlik Fəxrəddin Bəhram şaha (1162-1225) ithaf edilmiş “Məxzənül-əsrar” (“Sirlər xəzinəsi”) poemasına işarə edir) gəldi və hər ikisi də Bəhram şaha ünvanlanmışdı. Cümlə padşahların adına bu barədə püşk atdım, fala sənin adın gəldi”.

[2*] M.M.Axundov “Xosrov və Şirin” əsərinin “Kitabın tərtibi və eşqin bəzi incəlikləri haqqında” bəhsində nəql olunan əhvalatın ümumi məğzini vermişdir. Amma burada bir məsələni də xüsusi vurğulamaq lazımdır. Əsərdə deyildiyinə görə, şairin dostunun gəlişinin əsas məqsədi məhz onu atəşpərəstlərin adətləri haqqında yazmaqdan çəkindirmək, Allahın birliyindən yazmağa yönəltmək idi: “Tək Allahın qapısını çal, şöhrətin artsın, Atəşpərəstlərin adətini nə üçün təzələyirsən?” (Nizami Gəncəvi. Xosrov və Şirin. Filoloji tərcümə Həmid Məmmədzadənindir. Bakı, “Elm” nəşriyyatı, 1981. s. 52). Lakin şair, onun öz

sözlərindən də göründüyü kimi, çox böyük hörmət bəslədiyi bu yeganə dostunun acı sözlərindən incimir, onun qulağına "Könül açan Şirinin şirin ədasından" bir necə fikir oxuyur. Dostu bu nağılı eşitcək heyrətindən nitqi tutulur, "divara vurulmuş naxış kimi sakit dayanır" və sonra şairə "Belə sehrkarlığı sən edə bilərsən, Bir bütdən bir Kə`bəni sən düzəldərsən", - deyib onun hikməti qarşısında baş əyir.

Səh. 87

1* "Xosrov və Şirin"in elmi-tənqidi mətnində (Nizami Gəncəvi. Xosrov və Şirin. Elmi-tənqidi mətni tərtib edən L.A.Xetaqurov. Bakı, ASEA Nəşriyyatı, 1960. 817 səh.) bu misra "**نزد برخط خوبان کس چنین خال**" kimi verilmiş və istifadə olunan nüsxələrin heç birində "**فال**" variantı qeydə alınmamışdır. Görünür, ya M.M.Axundovun istifadə etdiyi nüsxə L.A.Xetaqurova məlum olmamış, ya da müəllif mətnin oxunuşunda xətaya yol vermişdir. Çünki "Xosrov və Şirin"in Azərbaycan dilinə olan məlum tərcümələrində də "xal" yazılmışdır. Əslində, beytin mənasına da "xal" sözü uyğun gəlir: "Gözəllərin üzündə heç kim belə xal görməmişdi".

2* Hicri tarixlə 576-cı il miladinin 1180-ci ilinə uyğun gəlir.

Səh. 88

[1*] Əslində bu söz "gaf" (گ) hərfi ilə yazılır: **بگنج** (begənc) – xəzinəyə.

[2*] Misranın tərcüməsi belədir: nə xəzinəyə yol tapmağa gözüm. M.M.Axundov nümunə gətirdiyi parçanın ikinci misrasındakı **گنج – xəzinə** sözünü yanlış olaraq **كنج – (konc - künc)** oxumuşdur.

Səh. 90

[1*] Əslində "pansəd" olmalıdır, lakin "xod" sözünə həmqafiyə olmaq üçün "pansod" oxunur.

[2*] Hicri 584-cü il miladi təqvimi ilə 1188-ci ilə, rəcəbül-mərcəb ayının otuzuncu günü isə may ayının 24-nə təsadüf edir.

[3*] Həmin ilin ziqədə ayı sentyabr ayına müvafiq gəlir.

[4*] Bu beytlər "Leyli və Məcnun"un bizə məlum olan poetik və filoloji tərcümələrində, eləcə də poemanın elmi-tənqidi mətnində (Низами Гянджеви. Лайли и Маджнун. Критический текст А.А.Алескер-заде и Ф.Бабаева. АН Азерб. ССР Институт Востоковедения. Москва, Изд. «Наука», 1965. 603 стр.) yoxdur. M.M.Axundov isə hansı əlyazma nüsxəsindən istifadə etdiyini göstərməmişdir və müəllifin gəldiyi qənaətdən də belə anlaşılır ki, katib tərəfindən əlavə edilmiş beytlərdir.

Səh. 91

[1*] Hicrətin 530-cu ili – miladi təqvimlə 1135-ci il

Səh. 93

[1*] Burada "**نامه دران**" kimi getmiş söz əsərin elmi-tənqidi mətnində "**ناموران**" ("**ناموران**" adlı-sanlı, məşhur) şəklində yazılmışdır. (**خمسهٔ نظامی الیاس بن یوسف نظامی گنجوی براساس متن علمی – انتقادی آکادمی علوم شوروی، تهران، ققنوس.** 1380)

ازین پانصد و نود سه قران
گفتم این نامه را چو ناموران. (s. 894)

Qeyd edək ki, əsərin məlum tərcümələrində də bu söz "adlı-sanlı, məşhur" kimi çevirilmişdir. Misraların filoloji tərcüməsi isə belədir: "Beş yüzdən doxsan üç sonra / Mən bu naməni adlı-sanlı (şairlər kimi) deyib (qurtardım) / Orucluq ayının on dördü idi / Gündən də düz dörd saat keçmişdi". (Nizami Gəncəvi. Yeddi gözəl. Filoloji tərcümə, izahlar və qeydlər professor Rüstəm Əliyevindir. Bakı, "Elm" nəşriyyatı, 1983. səh.293.)

[2*] M.M.Axundov, sadəcə, beytlərdə göstərilmiş tarixin tərcüməsini vermişdir. Gətirilən bədii parçanın filoloji tərcüməsi yuxarıdakı qeyddə verilmişdir.

[3*] "Tarixi-hicrətin beş yüz doqsan üçüncü ili,

rəməzanül-mübarək ayının on dördüncü günü, sübhdən dört saət keçmiş” – miladi təqvimlə 1197-ci il iyul ayının 31-i, gecə saat 12-yə təsadüf edir (Nizami Gəncəvi. Yeddi gözəl. Tərcümə etdi M.Rahim. İzahların müəllifi R.Əliyev. Bakı, “Lider nəşriyyatı”, 2004. səh.333).

Səh. 94

[1*] Hicri 597-ci il – miladi təqvimlə 1200-cü il.

[2*] Burada “ikinci” mənasında işlədilən “müsənna” (مثنی) sözü orijinalda, çox güman ki, korrektura səhvi olaraq “müsəmma” (مثمی) şəklində yazılmışdır. Qeyd edək ki, X.Məmmədov bu sözü “mütəmi” (bizə məlum olan lüğətlərdə belə sözə rast gəlmədik) şəklində oxumuşdur.

Səh. 95

[1*] Fransız şərqşünası Fransua Bernar Şarmua (1793-1868). F.B.Şarmua Nizami Gəncəvinin “İskəndərnamə” əsərindən İskəndərin rus torparlarına yürüşünü təsvir edən hissəni 1829-cu ildə tərcümə etmişdir və bu, şərqşünas alimin ilk böyük işi olmuşdur. Kitaba resenziya yazan Nikolay Polevoy Şarmuanın kitabını “yalnız elmi ictimaiyyət üçün deyil, bütün ziyalı oxucular üçün hədiyyə” adlandırmışdır. Onu da qeyd edək ki,

X.Məmmədov fransız şərqşünasının adını yanlış olaraq "Şarmoy" kimi yazmışdır.

[2*] Miladi tarixdə.

[3*] İndiki Sankt-Peterburq şəhəri nəzərdə tutulur.

[4*] Hicri 606-cı il miladinin 1209-cu ilinə təsadüf edir.

[5*] Şairin 67-68 il yaşaması haqqında artıq yuxarıda qeyd edilmişdir.

[6*] Yüz il sonra sorsan: - Bəs o hardadır?
Hər beyti səslənər: - Burda! Burdadır!

LÜĞƏT

B

Bak – f. **(باک) –** qorxu, xof; 2) çəkinmə, ehtiyat; 3) qayğı
Baliğ - ə. **(بالغ) –** yetişmiş, həddi-buluğa çatmış, yetkin
Biçiz – f. (**بی چیز**) – heç bir şeyi olmayan, yoxsul, kasıb

D

Dəfəat – (دفعات) – "dəfə" c. dəfələr(lə)

E

Etmam – f. (**اتمام**) – tamamlama, bitirmə, qurtarma, başa çatdırma, sona yetirmə
E`zam - ə. (**عظام**) – böyüklər, çox hörmətli şəxslər

Ə

Əğniya - ə. **(اغنیا) –** dövlətlilər, zənginlər
Əleyhirrəhmə - ə. (**علیه الر حمه**) – 1) Allah ona rəhmət eləsin! 2) rəhmətlik
Əşar - ə. **(اشعار)** – şeirlər
Əşxas - ə. **(اشخاص)** – şəxslər, adamlar

F

Fazil - ə. **(فاضل)** - 1) fəzilət sahibi, fəzilətli // gözəl əxlaqa malik olan; 2) üstün, yüksək; 3) artıq, çox

G

Gunə - f. **(گونه)** – növ, cür, tərz, qayda

Ğ

Ğaseb - f. **(غاصب)** – qəsbkar, qəsb edən

H

Havi - ə. **(حاوی)** - əhatə edən, ehtiva edən, içinə alan

Həsənə - ə. (**حسنه**) – yaxşı iş, xeyirxahlıq

Həvali - ə. **(حوالی)** - ətraf, civar

Himmət – ə. **(همت)** - 1) niyyət, məqsəd; 2) səy, çalışma, cəhd; 3) rəhbər, mürşid; 4) yüksək fikir(lər), düşüncə(lər)

X

Xəltə - ə. (**خلطه**) – qaynayıb-qarışmaq, ünsiyyətdə olmaq

Xudadad(ə) - ə. (**خداداده**) – 1) Allah vergisi, Allah verən; 2) *m.* təbii, fitri

İ

İltimas - ə. **(التماس)** – xahiş, rica

İnbisat - ə. (**انبساط**) – 1) genişlənmə, böyümə; 2) şərh

olunma, izah edilmə; 3) sevinmə, fərəhlənmə
İntəha` - ə . (انتهاء) – 1) nəhayət, son, axır; 2) sona çatma, nəhayəti olma, bitmə
İtab - ə. (عتاب) – məzəmmət etmə, üzünü danlama

K
Kifaf - ə. (كفاف) – 1) bəslik, bəs olma; 2) yaşamaq üçün lazım olan azuqə

L
Labüd - ə. (لابد) – 1) çox lazım, zəruri, vacib, mütləq; 2) çarəsiz, hər halda

M
Mə`ruf – ə. (معروف) – 1) bilinən, məlum olan, tanınan; 2) məşhur, hər kəsin tanıdığı
Mühərrir - ə. (محرر) – 1) yazan, yazıçı; 2) redaktor
Müqərrəb - ə. **(مقرب) –** yaxınlaşmış, yaxın
Müşar(ün)ileyh - ə. **(مشار اليه) –** haqqında danışılan, yuxarıda göstərilən
Mütəəddid - ə. (متعدد) – 1) çoxlu, saysız-hesabsız, 2) cürbəcür, müxtəlif
Müzəyyən – ə. (مزين) – zinətli, bəzəkli, bəzədilmiş

N

Nabud - f. (**نابود**) – yox olan, meydanda olmayan, məhv olmuş

Namətbu` - f. (**نا**) və ə. (**مطبوع**) – çap olunmamış, nəşr edilməmiş

P

Pürqiymət – f. (**پر**) və ə. (**قیمت**) – qiymətli

S

Suziş – f. (**سوزش**) – ürək yanğısı

Ş

Şayan – f. (**شایان**) – layiq, münasib, yaraşan. **Şayanitəqdir** – təqdirəlayiq

Şəhir - ə. **(شهیر)** – şöhrət qazanmış, məşhur

Şüru` - ə. (**شروع**) – başlama, işə girişmə

R

Rağib - ə. (**راغب**) 1) rəğbət göstərən; 2) arzulayan, istəyən.

Riştə - f. (**رشته**) – iplik, sap

S

Səza – f. (**سزا**) – layiq, münasib, uyğun, yaraşan

T

Talib - ə. **(طالب)** – 1) istəyən, tələb edən

Təəmmül - ə. **(تأمل)** - ətraflı düşünmə, götür-qoy etmə, rəy, mülahizə

Təhsin - ə. (**تحسين**) – 1) yaxşılaşdırma; 2) alqışlama, tərifləmə, bəyənmə; alqış

Tə`lif - ə. (**تأليف**) - əsər yazma, kitab tərtib etmə

Təməllüq - ə. (**تملق**) – yaltaqlanma, yaltaqlıq

Təsbih - ə. (**تسبيح**) – dua, dua oxumaq

Tövhid - ə. (**توحيد**) – 1) Allahın birliyi, monoteizm, təkallahlılıq

Tövzih(at) - ə. (**توضيح**) – izah etmə, aydınlaşdırma

Ü

Ümərа` - ə. **(امراء)** - əmirlər

V

Və`z - ə. **(وعظ)** – 1) nəsihət, öyüd; 2) moizə

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU

Yeni dizaynla hazırlanmış kitabın çapı Nazim Rza İsrafiloğlunun özəl yardımı ilə gerçəkləşdirilib. Onun satışından əldə olunan gəlir M.M.Axundovun başqa əsərlərinin hazırlanıb çap edilməsinə yönəldiləcəkdir. Kitabın ərsəyə gətirilməsində əməyini əsirgəməyən sayğılı və sevgili insanlara M.M.Axundovun varisləri adından "Çox sağ olun" deyirik.

Mətbəənin direktoru: ***Elman Qasımov***
Dizayner: ***Mətanət Əliqızı***

Çapa imzalanmışdır: 10.10.2017. Formatı 84x108 1/16.
Həcmi 8,5 ç.v. Sifariş № 54. Tiraj 300

«Zərdabi LTD» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel: (012) 514-73-73, mob. (050; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru

— ٢٠ —

ایده‌یز اولمزاری سیز اما
لایقنجه عزیزلر تعمیر
اویاتان گنجه‌لی نظامیدر
شعرا قسمینك عظامیدر.

ـــوكـــ

فیورال ٢٥ سنه ١٩٠٩

— ۱۹ —

قانلار آخیداجاق درجه‌ده خرابه‌در بیله‌که قاباقدن ایکی طرفی تمام اوچمشدی. انسانیت‌دن بی‌خبر کندچیلر قیشدا سا وقدن و یایده ایستی‌دن دالدالانماق‌ایچون ایچینه آت وایشك باغلیوردیلار: اما ایندی تمام اوچدیقندان بو ایشه‌ده یارامیور. بوگونه قابل، حکیم و فاضل بر شاعرك قبرینی و کنبدینی تعمیر ایتمك هربر انسانم دیین شخصك وظیفه‌سیدر.

پس ازصدسال اگر گویی کجا او
ز هربیتی ندا خیزد که ها او

بول کناریندە بر مزار حقیر
داغیلوب، کنبدی اولوب ویران
اونه مخلوقدن اولورتحقیر
باغلانور کنبدینه هر حیوان
منظری آدمه ایدیر تأثیر
آخیدیر قلبه هر دقیقه‌ده قان
کیمسه ایتمز سؤال کیمدربو
اونا قوشلار اولوبدی فاتحه‌گو

بو خرابه مزارده آیا
گوره‌سن کیمدی‌بیله خواریاتیر
کیمسه‌ایتمز بونی‌سؤال‌اصلا
سیزه من ایلیوم اونی تقریر

— ١٨ —

معلومات ویریر:

بتاریخ پانصد نودهفت سال
که خواننده‌را زو نگیرد ملال
نوشتم من این نامه‌را درجهان
که تا دور آخر بود جاودان (١٤)

پس بوندان آنگلاشیلدیقینه گوره همین کتابی بیش یوز دوقسان یدینجی ایلده اتمامه یتوروبدر.

اقبال نامه — اسکندرنامه‌دخی ٣٥٤٢ بیتی حاوی اولوب، اقبال‌جی‌نك، یعنی شرف‌نامه — اسکندرنامه‌نك متمی ویا باشقا تعبیرایله ایکنجی جلدی‌در. بو کتابك تاریخینه کلدیکنده بو باره‌ده الیمزده هیچ بر معلومات یوقدر. آنجاق بوراسی معلومدر، که همین کتابی شرفنامه‌دن سوکرا نظم ایدوبدر.

شیخ نظامی علیه‌الرحمه‌نك همین بیش کتابی دفعات ایله طبع اولونوبدر. و حتی «موسیو شارموی» طرفندن فرانسیز جه‌یه ترجمه اولونوب ١٨٤٥ مجی تاریخ مسیحیده «پتر سبورغ» ده طبع و نشر اولونمشدر.

شیخ نظامی‌نك وفاتی تاریخ هجرتك ٦٠٦ مجی ایلنده واقع اولمشدر. عمری سکسان آلتی سنه‌در. وفاتی کنجه‌ده اولوب، قبری کوهنه شهرده و ایندیکی شهردن یدی ویرست کناردەدر. قبری و اوستنکی کنبدی هربر انسانك قلبینه

---

(١٤) بیش یوزدوقسان یدی تاریخده که اوخویان ایچون ملال کتورمه‌سون من بونامه‌نی یازدیم که دنیاده آخرنجی زمانه‌دك همیشه‌لیك قالسون.

— ۱۷ —

نظامی علیه‌الرحمه‌نك «هفت‌پیکر» یاخود «بهرام نامه» سینه کلدیکده بودا قاباقکی‌لر کیمی عشقلی بر حکایه‌در، که ٤٨٨٨ بیتی حاویدر.

بو کتابداهم شیخ‌نظامی اوز استادلیقینی ظاهره یتورمشدر. بو کتابك تاریخ اتمامی باره‌سینده اوزی مشکلاتی حل‌ایدوب، کتابك خاتمه‌سینده بو گونه‌جه سویلیور:

ازپس پنصد و نودسه قران (۱۳)
گفتم این‌نامه‌را چو نامه‌دران
روز برچارده زمه صیام
چارساعت زروز رفته تمام

بو ایکی بیت «هفت‌پیکر» نام کتابك اتمامه یتمك تاریخی‌نی آپ آچیق سویلیور، بیله که تاریخ هجرتك بیش‌یوز دوقسان اوچنجی ایلنده رمضان‌المبارك آیك اون دوردنجی گونده صبحدن دورت ساعت کیچمش اتمامه یتیشوبدر. هرچند کتابك تاریخ ابتداسی معلوم دکلدر، اما تاریخ انتهاسینده اختلافه اوغرامیوریق.

شیخ‌نظامی‌نك اسکندرنامه‌سینه کلدیکده، بو ایکی کتابدان عبارتدر: بریسی «شرف‌نامه—اسکندرنامه» و اوبریسی «اقبال نامه—اسکندرنامه» در.

شرف‌نامه—اسکندرنامه ٦٠٨٣ بیتی حاوی‌در.

بونك تاریخ اتمامی باره‌سینده بزه کتابك آخرینده بیله

---

(۱۳) بیش‌یوز دوقسان اوچنجی تاریخده بونی تمام‌ایتدیم. رمضان آیینك اون‌دوردی و صبحدن دورت ساعت کیچمشدی.

— ١٦ —

الاسرار» و هابیله «خسروشیرین» دن سوگرا یازوبدر. و نیجه‌که قاباقدا عرض اولوندی «مخزن‌الاسرار» ٥٤٥ـ٥٤٦ تاریخلریربده و «خسروشیرین» ٥٧٦ مجی تاریخ هجریده انمامه‌یتیشوبدر. «لیلی‌ومجنون» اونلاردان سوگرا نظمه چکیلدیکی یقین‌در: چونکه بونگ سبب نظمنده یازدیقی اشعارده اوغلینك دیلندن اوزینه خطاباً بیله سویلیور:

فرزند محمد نظامی
آن بردل‌من چوجان گرامی
داد ازسرمهر پای‌من بوس
کای آنکه زدی بر آسمان کوس
خسروشیرین چه یاد کردی
چندین دل‌خلق شاد کردی
لیلی‌مجنون بهیدت گفت
تا گوهر قیمتی شودجفت (١٢)

بو اشعار «لیلی‌مجنون» گ «خسرو شیرین» دن‌سوگرا نظمه چکیلدیکینی آپ‌آچیق گوستریر. بو صورتده‌ده ایکنجی تاریخ، یعنی «لیلی‌مجنون» گ بیش‌بوز اوتوزنجی ایلده اتمامه یتمکی درست اولمیور. بو توضیحاتدن دیمك اولور، که ایکنجی تاریخده سهو واردر.

---

(١٢) منیم جانمدان عزیز اولان اوغلوم محمد آیاغیمدان اوپوب، دیدی: ای شهرتی گوکلره چیخان! خسرو شیرینی یازوب، خلقگ یورکینی شاد ایله‌دگ ایندی لیلی و مجنونیده یاز که بو قیمتلی گوهر جفت اولسون.

— ۱۵ —

«لیلی و مجنون» حکایه‌سینك نظمینه رجب‌المرجب آینك اوتوزنجی گونی تاریخ هجرتك بیش‌یوز سکسان دوردنجی ایلنده شروع ایدوبدر. و چونکه همین حکایه‌نی دورت آیدان برآز اکسیکده تمام ایدوبدر. دیمك اولور، که همان ایلك ذی‌قعده آیینك آخرلرینده تمامه یتوبدر. بو حساب‌ایله هرگونده قرخ بیت دیمش اولور. لاکن کتابك آخرنده دیدیکی ایکی بیت نظره آلیندیقدا ایش برآز مشکله دوشور، چونکه اوراده حکایه‌نی بو ایکی بیت‌ایله تمام ایدوب، دییور:

درروز دوشنبه آمد آخر (۱۱)
ازلطف خدای فرد قاهر
در پانصد سال سی و بر سی
بگذشته زهجرت پیمبر

بو بیتلر قبول اولندیقدا «لیلی و مجنون» حکایه‌سینك اتمامی تاریخ هجرتك بیش‌یوز اوتوزنجی ایلینده اولمیش اولور: لاکن بوراسی برآز محل تأملدر. چونکه اوّلا قابقدا سویله‌نیندیکی اوزره شیخ نظامینك توئدی هجرتك بیش‌یوز ایکرمنجی ایلنددر و بو صورتده «لیلی ومجنون» حکایه‌سینی اون‌باشینده نظمه چکمیش اولور و بودا ممکن دکلدر. ایکنجی کتابه شروع ایدنده یازدیغی تاریخ‌ایله دوز کلمیور. و اوچنجیسی ترتیبه باخانده همین کتابی «مخزن

(۱۱) الله‌تعالی‌نك قوّت و قدرتی‌ایله شنبه کونی تمام‌اولدی. هجرت پیغمبردن‌هم بیش‌یوز اوتوزایل کیچمشدی.

— ۱۴ —

از سستی عمر و ضعف حالت

بو ایشدن اوغلوم محمد خبردار اولدیقدا اوداباشلیوب بو امری یرینه یتورمکی مندن التماس ایله‌دی، منده چوق فکردن سوکرا لابد قالوب، کتابه شروع ایله‌دیم.»

بو کتابک تاریخ نظمینه کلدیکده المزده اولان معلومات قاباقکیندن آرتیقدر. بیله‌که او جناب اوزی «سبب نظم کتاب» سرلوحه‌لی نظملرینده سویلیور:

این چارهزاربیت اکثر (۱۰)
شد گفته بچارماه کمتر
گر شغل دگر حرام بودی
درچارده‌شب تمام بودی
کاراسته شد به‌بهترین حال
درسلخ‌رجب بثاء فا دال
تاریخ عیان که داشت باخود
هشتاد چهار بعد پانصد

شیخ نظامی‌نك بو شعرلری نظره آلندقده معلوم اولور، که

چکیلمکه قدرتیم. ضعیفلکدن و سستی بدندن سر گشته و خجالت اولدیم.

(۱۰) بو دورت‌میندن آرتق اولان شعرلر دورت آیدان اکسیکه باشا کلدی. هرکاه باشقا ایشیم اولماسیدی اون‌دورت گیجه‌ده تمام اولاردی. احوالمك یاخشی وقتنده تمام اولدی. رجب المرجب آینك اوتوزنجی گونی‌ایدی و هجرتدنده بیش یوز سکسان‌دورت ایل کیچمشدی.

— ۱۳ —

«مخزن‌الاسرار» قدری مشکلاته اوغراشمیریق. چونکه کتابك آخرینده اوزی بزه بوباره‌ده معلومات ویروب، سویلیور:

گذشته پانصد و هفتادشش سال
نزد برخط خوبان کس جنین فال (۸)

بو نه گوره «خسروشیرین»، ۵۷٦ مجی تاریخ هجریده یازیلمش اولور. بو کتاب آلتی‌مین دوقوزیوز ایکرمی بیتی حاویدر.

«لیلی و مجنون» نام کتابچه‌سی‌دخی ۴٤٦۸ بیتی حاوی عشقلی برحکایه‌در. بونك سبب نظمینه کلدیکده اوزی بو گونه‌جه سویلیور:

«بدنیم ضعیفلشمشدی. اوزیمده قوجالدیغیما جهت دها نظم دیمك خیالندن دوشوب، راحتلك گوشه‌سینه چکیلمك ایستیوردیم. بو وقتلر شیروان شاهدن بر قاصد گلوب، منه کاغذ گتوردی. کاغذی آچوب اوخودیقدا گوردیم، که پادشاه یازوب، لیلی و مجنون حکایه‌سینی نظمه چکمکی مندن خواهش ایدوبدر. بوکاغذی اوخودیقده احوالیم پریشان اولدی. چونکه:

نی زهره که سر زخط بتابم (۹)
نی دیده که ره بکنج یابم
سرگشته شدم بدان خجالت

(۸) بیش‌یوز یتمش آلتی‌ایل کیچمشدی و گوزللرك یوزینه کیمسه بیله فال آچمامشدی.

(۹) نه حکمدن باش قاچیرماقه جرئتیم وارایدی، نه گوشه‌یه

— ۱۲ —

همین حکایه‌ده شیخ نظامی علیه‌الرحمه محبت رشته‌سینه گوهر دوزوبدر دییلسه سزادر. اشخاصی لازمنجه تصویر ایلیوبدر. «شیرین»ک عاشقی اولان فرهادک سوزلرینی او خودقجا انسانک قلبنه اود ساچوب یاندیرور. نیجه که فرهاد دی کوه بیستوندا شیرین‌ک عشقنده سویله‌دوب دییور:

زعشقت سازم و میسوزم اردور (۷)
که پروانه ندارد طاقت نور
به‌بخت من کس ازمادر مزاید
بروزمن ستاره برمیاباد
اگر درتیغ دوران رحمتی هست
چرا برد ترا ناخن مرا دست
اگر عدل‌است در دریاو درکوه
چرا تو شادمانی من دراندوه
اگر بی‌میل شد پستان گردون
چرا بخشد ترا شیر و مرا خون

«خسرو شیرین» حکایه‌سینک تاریخ نظمینه کلدیکده

---

(۷) کنارمدن عشقک دایانوب یانورام. چونکه پروانه‌نک نوره طاقتی یوخدر. من بختده هیچکس آنادان اولماسون. من گونده هیچ بر یولدوز چیخماسون. اگر زمانه‌نک قیانجندا رحم اولسیدی سنک دیرناغیکی و منیم الیمی کسمزدی. اگر داغلاردا و دریالرده عدالت اولسیدی سن شاد اولوب، من غمکین اولمازدیم. زمانه‌نک ممه‌لری میل سیز اولماسیدی، سن سود و من قان اممزدیم.

— ۱۱ —

هردو مسجل بدو بهرامشاه (٦)
بر همه شاهان زپی این‌جمال
قرعه زدم نام‌تو آمد بفال

همین فخرالدین بهرام‌شـاه هجرتك ٥٤٧ مجی سـنه سینده وفات ایدوبدر. بو توضیحاته باخاندا بیله معلوم اولور که «مخزن‌الاسراری» شـیخ‌نظامی علیه‌الرحمه جوان‌ایکن، یعنی ایکرمی‌بیش ایکرمی آلتی سننده اولان‌حالده یازوبدر مخزن‌الاسرار کتابی ایکی‌مین ایکی‌یوز اللی بیتی حاویدر.

«خسرو شیرین» نام کتابینه کلدیکده بو، سـوزشلی و عشقلی برحکایه‌در. بو کتابی نظم ایتمکلکی‌نك سببنی اوزی بیله روایت ایلیور:

«بر گون دوسـتلریمدن بری منی گورمکه گلمیشـدی، صحبت آراسیندا همین دوستم منه عتاب و خطاب ایدوب، توحیددن بر شی یازماقیمی خواهش ایله‌دی. منده بونك جوابنك مقابلنده «خسروشیرین» احوالاتنی بونه نقل ایتمکه باشلادیم. بیله شیرین یرحکایه‌یی مندن ایشیتدیکده، دوسـتم تحسین ایلیوب، اولکی فکرندن دکیشیریاوب، همین حکایه‌نی نظمه چکمه‌کیمی خواهش ایله‌دی. بونك خواهشنك مقابلنده نه‌قدر عذر گتوردیمسه، قبول ایتمیوب، اوز سوزنده اصرار ایله‌دی. لاعلاج قالوب، التماسینی قبول ایله‌دیم.»

---

(٦) ایکی اهل ناموسدن ایکی کاغذ کلدی و هرایکیسیده بهرام‌شاه ایدی. جمله پادشاهلارك آدینه بوباره‌ده قرعه آتدیم سنك آدك چیخدی:

— ۱۰ —

پای زسر کرد بلب در فشاند (۴)
مخزن اسرار بپایان رساند
بود حقیقت بشمار درست
بیست چهارم زربیع نخست
از گه هجرت شده تااین‌زمان
پانصدو سال‌دگر افزون برآن

بیش‌یوزدن نه‌قدر آرتیق اولدیغی معلوم دکلدر، حال بوکه بیش‌یوز ایکرمی تاریخده اوزی تولدایتمشدر. آنجاق سوکرا دییورکه:

شکر که این‌نامه بعنوان رسید (۵)
بیشتر ازعمر بپایان رسید

نظامینک بو بیتندن آکلاشیلدیقینه گوره «مخزن‌اسراری» عمرینک چوخی گیتمش یازوبدر و بو توضیحاته گوره بو کتابی بیش‌یوز یتمش تاریخلرنده یازمش اولور. لاکن روایتلره گوره «مخزن‌الاسراری» فخرالدین بهرام‌شاه غزنوی آدینا یازوبدر. نیجه که کتابچه‌ده همان پادشاهک مدحندن سوکرا بیله دییور:

نامه دو آمد زدو ناموسکاه

---

(۴) فکره گیدوب دوداقلندن در ساچدی و «مخزن الاسراری آخره یتوردی. درست حساب‌ایله ربیع‌الاوّلك ایکرمی دوردی‌ایدی، هجرتدنده بوزمان بیش‌یوز ایلدن آرتق کیچمیش‌ایدی.

(۵) شکرکه بونامه تمام‌اولدی و عمردن چوخی‌گیتمشدی

— ۹ —

آدینا قباله ایتدیریر.

شیخ نظامی‌نک انزلرندن بو حالده الده اولان اونک «خمسهٔ نظامی» دیمک‌ایله مشهور اولان بیش کتابیدر. اونلار دا: «مخزن‌الاسرار» ، «لیلی‌ومجنون» ، «خسروشیرین» ، «هفت‌پیکر یاخود بهرام‌نامه» و «اسکندرنامه» آدلی منظومه‌لرندن عبارتدر. بونلاردان باشقا، سویله‌نیلدیکینه گوره ایکرمی‌مین بیته بالغ سایر قصیده‌لری، غزللری و باشقا اشعاری‌دخی وارایمش: اما بونلارک اکثری نابوددر. شو ایکی بیت اونک اشعار نامطبوعه‌سینک جمله‌سندندر:

گر همه جلاب باشد آب جوی کس مخور [۳]
ور همه تسبیح باشد نقش نان کس مخوان
چونکه آب دیده داری از ضعیفی باك نیست
زانکه مروارید را باریك بهتر ریسمان.

شیخ نظامی‌نک «مخزن‌الاسرار» نام کتابینه کلدیکده باشدان آیاغه حکمت و اخلاق حسنه اوکرهدن متعدد منظوم حکایه لردن عبارتدر. بو کتابک ابتداسینه هانسی تاریخده شروع ایدوبدر و نه وقتده اتمامه یتوروبدر، اوراسی درست معلوم اولمیور. آنجاق کتابک آخرینده کتابک اتمامه یتکینه‌دایر بر بیله تاریخ یازوبدر:

---

[۳] اگر گلاب‌دا اولمیش اولا بر کسک آرخینک سویی‌نی ایچمه، اگر هامیسی تسبیحده اولا بر کسک چو رلینی تعریف ایتمه. گوز یاشك که واردر ضعیفلکدن باك ایتمه؛ چونکه مرواریدایچون ایپ نازیك اولسا یاخشیدر.

— ٨ —

اولور و بونه جهتده آدم گونده‌روب، نظامی‌نی حضورینه ایستیور. بو او وقت اولور، که نظامی «خسروشیرین» نام عشقلی بر حکایه‌سینی (رومانلنی) تازه‌جه تمام ایدوبمیش. نظامی پادشاهک دعوتینی قبول ایدوب، حضورینه عازم اولور. بو وقت پادشاه اوز مخصوصی چادربنده اوزمقربلریله عیش و عشرته مشغول‌ایمش و مجلسه شراب دوزولوبمیش. نظامی‌نک کلمك خبرینی ایشیتجکین «اونک صحبتی بزیم بو مجلسمزدن لذتلی‌در» دییوب، پادشاه‌هم نظامی‌یه احتراما همان ساعت شراب بساطینی ییغماق امر ایدیر.

نیجه که اوز خمسه‌سنده پادشاهک دیلندن دییور:

نوای نظم او بهتر ز رودست
همه گفتار او یکسر سرودست
چو خضر آمد زباده سر بتابیم
که آب زندگی ازخضر یابیم [۲]

سوگرا مجلسی مخصوصی ایلیوب، نظامی‌نی حضورینه ایستیوب، صبحدن آخشامه کیمی صحبت ایلیورلر و بو اثنا ده پادشاهک خواهشینه گوره تازه مزدیغی خسرو شیرینی اوخویور. خسروشیرین پادشاهک نهایت‌درجه‌ده خوشینه‌گلور. همان‌ساعت امر ایدیر، که بردست خامت «نظامی» علیه الرحمه‌یه ویریرلر و «حمدانیان» کندینی‌دخی اونا باغشلیوب،

[۲] نظامی‌نک نظمی‌نک نواسی چالقیدن یاخشیدر و اونک سوزلری شادلق گتورندر. خضرکه کلدی آییلوب، دیریلیك سویینی اوندن ایسته‌ملیدر.

— ۷ —

بونگله بیله بوده باشقا شاعرلر کیمی عمرینی پادشاهلارا، امرایه و اغنیایه تملق‌ایدوب، مداحلیقدا کیچورمیوبدر. بر نیچه یرده دیواننده پادشاهلارا مدح یازوبدرسه‌ده اوبری شاعرلر کیمی حدیندن آرترمیوبدر و بلکه همان مدحی پادشاه لاره نصیحت و موعظه‌دن عبارت اولوبدر. نیجه که پادشاه عصری اولان نصرةالدینه خطابا سویلیور:

سپارندهٔ پادشاهی بتو
سپرد ازجهان هرچه خواهی بتو
بدان داد ملکت که شاهی کنی
چو داور شوی دادخواهی کنی
نه بزی کند بر پر پشه زور
نه پیلی نهد پای بر پشت مور [۱]

پادشاهلاردن احترام گوررردی دیدکده، اوز گه‌نری کیمی پادشاه مجلسنده بولونماقه بو اوزی طالب و راغب دکمش بلکه پادشاهلار بونگ صحبتندن خوشلانوب، اوندن بر استفاده ایتمك ایستیرلرمیش. نیجه که «قیزیل شاه» او زمان کلوب، گنجه‌نگ اوتوز آغاجلیقندا دوشنده اقلمجی خیالی شیخ نظامی‌ایله گوروشوب، اونگله صحبت ایتمك او

[۱] پادشاهلیقی سگا تاپشیران (الله) دنیاده هرنه خواهش ایتدیگسه ویردی. مملکتی سگا اونگ ایچون ویروب، که پادشاهلق ایدوب، خلقگ دادینه یتشه‌سن، بیله که بر قیزیل قوش بر ملچکگ قنادینه‌ده زور گتوره بیلمیوب، بر فیل‌ده بر قارینجانی باسوب ازمه‌سون.

— ٦ —

ایدوبدر.» سوکرا ادیب مشارالیه «شهرر» شیخ نظامی‌نك خمسه‌سی یعنی دیوانی بارهسنده بحث ایدوب دیور که: «ادبیاتده شیخ نظامی‌نك خدمتی هم نوعلرینك آراسنده بو جهتدن آرتیق تقدیر و تحسین اولونمالی‌در که شیخ اوز شعرلرنده مسلمان عورتلرینك کنیزلر منزله‌سنده یاشا ماقلارینی نظره آلوب اونلارك بو فنا حالدن نجات تاپماق لارینه طرفدار اولماغینی اوز شعرلرنده بیان ایتمشدر. شیخ نظامی‌نك کلامی نظم جهتنجه خیلی شیرین و گوزل اولدیغی کبی اوقوندقجه دخی خالص انسانیت حسلرینی اویاندیر. شیخ نظامی شرق ادیبلرینك اوللجه‌لرندن حساب اولونور. چونکه شعرلرینك جمله‌سی مذهب شعریه جهتنجه اك گوزل کلامدر. اوندغی کبی حسنات حقیقیه نامه‌سی‌ده‌دخی‌ده‌لودر.»

شیخ نظامی جماعت‌ایله بر و قدر خلطه ایتمزایمش و همیشه عمرینی گوشه نشین‌لیکده گیچورمیش. مایه جهتنجه چوق فقیر و بی‌چیزایمش. همیشه زمانه‌دن و اهل زمانه‌دن شکایتجی اولوبدر. زمانه‌سینده اونك اشعرینی نهایتکه تقدیر ایتمورلرایمش حتی آنکلاشیلدیغینه گوره احترامسیزلیقده ایدیرلرمیش. و بونه جهتده اشعارینك اکثر برینده جماعت دن فرلنیق ایدوبدر. اشعارینك چوخوسی حکمتی حاوی اولدیغندان حکیملك لقبینی‌دخی قزانمشدر. و اونا گوره‌ده اونا «حکیم نظامی» دییه سویله‌میشلر. حقیقتده‌ده حکیم کیمسنه‌ایمش. قابلیت شعریه‌سینه هیچ برسوز یوقدر. برنجی درجه شاعرلرك جمله‌سندن حساب اولونماقده‌در. زمانه‌سینك پادشاهلاری کندیسینه نهایت درجه‌ده احترام ایدرلرمش.

— ٥ —

شیخ نظامی

شیخ نظامی‌نك بابالاری «قم» اهلندن اولوب‌دا اوزینك تولدی و هم وفاتی گنجه شهرینده اولدیغندان «نظامی‌گنجه‌وی» دیمکله مشهوردر. نظامی‌نك اصل آدی «الیاس» در که «یوسف» ك اوغلیدر و اودا «مؤید» ك اوغلیدر. «نظامی» اونك شعرده ایشلتدیکی تخلصی‌در و اونا گورده آنجاق «نظامی» دیمك‌ایله شهرت تاپمشدر. سکسان آلتی سنه عمر ایتدیکینه جهت‌ده «شیخ» لینك لقبنی آلوب، «شیخ‌نظامی» آدلانوب‌در. محمد آدلی اوغلی اولدیقندن اونه «ابومحمد» دخی دیرلرایمش. محمدك آدی دیمکدر. اوز خمسه‌سندك نیچه برینده همین محمد آدلی اوغلینه خطابا وعظ و نصیحت ایتمشدر. شیخ نظامی‌نك تولدی هجرتك ٥٢٠ مجی ایلنده واقع اولمشدر. اوزی عالم فاضل و هم شاعر بر ذات اولوب، علم و معارفی آرتیجق دوست دوتارمش، نیجه که اوغلینا ایتدیکی وعظ و نصیحت‌دن آنلاشیلور.

نمسه ادیبلرندن مشهور «موللر» اوزینك تاریخ اسلام کتابنده فارس شاعرلرینی تنقید ایتدیکی یرده ترك شاعرلرینه کیجوب شیخ نظامی‌نی تعریف و تحسین ایدوب، فردوسی‌دن سوکره اوّلنجی شاعر حساب ایدیر.

هابیله ادیب شهیر «شهرر» اوزینك تاریخ ادبیات عمومی‌سنده مرحوم شیخ نظامی باره‌سنده دییور که، «شیخ نظامی اوز وطنی اولان گنجه‌ده (١١٨٠) نجی ایلده وفات

— ۴ —

اونگ اثرلرینی یوز مینلرجه طبع ایتدیروب، جماعت آرا سنده نشر ایتدیریرلر.

بزه، یعنی مسلمانلاره کلدیکده ایش بوسبوتون عکسینه‌در. بر ادیب ویا بر شاعر نه سعایتمدا و نه‌ده اولندن سوکرا هیچ بر احترام کورمیور. عالم اسلامیتده مینلرجه ادیب‌لر و و شاعرلر کلوب، کیچمیشلر. اونلارگ اکثرینگ اصلا آدی‌دا خاطرلرده قالمیوبدر. آدی خاطرلرده قالانگ قبری نه‌موجوددر. قبری معلوم اولانلار خرابه‌در.

اثری موجود اولان شاعرلریمزگ اکثری نامطبوعدر. بعضلرینگ اثرلری بعض اشخاصلر طرفندن ضبط اولونوب، یوزده‌ده چیخمیور. بو ایشی بیله‌ایدن شخصلر بونی اوزلری ایچون فخرده بیلورلر. نیجه که گنجه‌لی میرزا مهدی ناجی تخلص عبدالرحمه‌نگ وار بولنمز بر نسخه‌دن عبارت اولان اشعاری اوزبکی عالم و معرف پرست بیلن بر نفر معلم نما طرفندن ضبطه اورولوبدر. نه وارثلرینگ‌و نه‌ده جماعتدن «ناجی» نگ اثرینی طبع ایتدیرمك ایستین‌لرگ توقعلری غضب جذبینه تاثیر ایتمیور.

بلی بزیم ایشیمز اوروپانگ بوسبوتون عکسینه‌در. اسلام شاعرلریندن سعدیلرگ، حافظلرگ، فضولی‌لرگ، خاقانی‌لرگ، قاآنی‌لرگ والخ کیمی‌لرگ قبرلری خراب اولوب، اونی تعمیر ایتمك خاطره بیله کلمیور. بونلارگ جمله‌سیندن بریده گنجه‌نگ حوالی‌سینده واقع برنجی درجه‌دن حساب اولان شاعر استاد (همین ترجمهٔ احوالینی یازدیقیم) شیخ نظامی گنجه‌وی علیه‌الرحمه‌در.

مقدمه

بو زمانه‌ده، یعنی اون دوقوزنجی عصرگ ابتداسیندن باشلیراق اوروپاده شایان تقدیر ویا غبطه اولوناسی بر حال وارسه، اودا ادیبلرگ، محررلرگ، شاعرلرگ و عالملرگ احوالاریدر. اوروپا جماعتی اونلارگ عالم انسانیته اولان خدمتلرینی نظره آلوب، اونلارگ شأن و شرفلری و آدلارینگ همیشه برحیات قالماقی اوغورندا آرتیجق غیرت ایتمکده‌در. جماعت اونلارگ ایولرینی و شیئلرینی کامجکه بر یادگار اولماق ایچون ساتین آلوب، محافظت ایدیر. قبرلرینگ اوستنده بویوك، پرقیمت و مزین نشانکاهلار تیکدیریرلر. اونلارگ آدلارینا مکتب و مدرسه بنا ایتدیریرلر. خلاصه هر نوعیلن، که ممکن‌در، اوز ادیبلرینگ و شاعرلرینگ خدمتلرینگ مقابلنده بر خدمتنده بولونماق همت و غیرت ایدیرلر، اوروپالیلار عالمه، ادیبه و شاعره احترام ایتمکده عمومیت اوزره متعصب دکلدرلر. هر طائفه‌دن اولور اولسون ادیبگ و شاعرگ احترامینی لازم درجه‌ده دوتورلار و اونگ گوزل اثرلرینی اوز دیللرینه ترجمه ایدیرلر. اودر، که جماعتدن بیله حسن تقدیر گوروب، بیله شخصلرگ عددلری گون گوندن آرتماقده‌در. اوروپانك هانسی بر شهرنه گیدیرسن اوراده بر ادیبگ نشانی ویا برشاعرگ آدینا اولان بنای خیر گوررسن. اوروپاده حتی کوچه‌لره‌ده مشهور و معروف برشاعرگ ویا بر ادیبگ آدینی قویمشلار.

بو خرابه مزارده آیا گوره‌سن کیمدی بیله خوار یاتیر؟

شیخ نظامی

(ترجمهٔ حالی)

اثر:

میرزا محمد آخوندوف

ناشری:

محمدباقر بیك شیخزمانوف

کتابچه‌دن وصول اولان پول تمامیسیه شیخ نظامی‌نك کنبدینه صرف اولوناجقدر.

گنجه‌ده احمد حاجی حسن‌زاده مطبعه‌سنده چاپ اولوندی

سنهٔ هجری ۱۳۲۷ سنهٔ میلادی ۱۹۰۹